AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyası.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti* — *№ 27 (1372), 29 iyun - 2 iyul 2018-ci il* — *Qəzet 2001-ci ildən çıxır.*




## Tanınmış ictimai-siyasi xadimin 80 illik yubileyi qeyd olunub

İyunun 25-də Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında tanınmış ictimai-siyasi xadim, məşhur basketbolçu SamurNovruzovun anadan olmasının 80 illik yubileyi münasibətilə tədbir keçirilib.

Tədbirdə gənclər və idman naziri Azad Rəhimov, mədəniyyət naziri Əbülfəs Qarayev, Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidentləri Çingiz Hüseynzadə, Xəzər İsayev, MOK baş katibinin müavini Azər Əliyev, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, dövlət xadimləri, millət vəkilləri, yubilyarın dostları və idman ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən gənclər və idman naziri Azad Rəhimov Samur Novruzovun müstəqil Azərbaycan dövlətçiliyinin tarixində özünəməxsus yeri olan şəxsiyyətlərdən olduğunu vurğulayıb. Qeyd edib ki, ötən əsrin 90-cı illərinin əvvəllərində, ölkəmizdə xaos və anarxiyanın, hərc-mərcliyin mövcud olduğu vaxtlarda xalqın yeganə ümidinin təkcə ulu öndər Heydər Əliyev olduğunu bəyan edərək onun Naxçıvandan Bakıya dəvət edilməsi üçün çalışan qabaqcıl ziyalılardan biri də məhz Samur Novruzov idi. Ümumiyyətlə, Samur Novruzov ömrünün sonunadək ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasətini dəstəkləyib, dövlətçiliyimizin möhkəmlənməsi yolunda Ulu Öndərin ən fəal müdafiəçilərindən biri olub.

*(ardı 2-ci səhifədə)*

## Güləşçilərimiz "Çempionlar" turnirində qüvvələrini sınayacaqlar

İyulun 4-7-də Türkiyənin İstanbul şəhərində sərbəst, yunan-Roma və qadın güləşi üzrə gənclər arasında "Çempionlar" adı altında beynəlxalq turnir keçiriləcək. Sayca, 21-ci dəfə təşkil ediləcək yarışda sərbəst güləş üzrə gənclərdən ibarət yığmamızın üzvləri iştirak edəcəklər.

Beynəlxalq turnirdə böyük məşqçi Saypulla Absaidov və məşqçi Nazim Əlicanovun rəhbərliyi altında 10 güləşçimiz mübarizə aparacaq.

## BMX-2018-də çəkilən şəkil ayın fotosu elan edilib

Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) növbəti aylıq hesabat jurnalı işıq üzü görüb və quruma üzv olan 190 milli federasiyaya göndərilib. Jurnalda diqqəti cəlb edən əsas məqam iyunun 5-9-da paytaxtımızda keçirilən BMX üzrə dünya çempionatına yer ayrılması və ölkəmizdə çəkilən bir fotonun UCI tərəfindən ayın fotosu elan edilməsidir. Fotonun altında bu sözlər yazılıb: "Təşəkkürlər Bakı! Bu heyranedici dünya çempionatı idi".

UCI prezidenti David Lappartienin milli federasiyalara ünvanladığı müraciətində BMX üzrə Bakı dünya çempionatına da yer ayrılıb: "İyunun əvvəlində Bakıda keçirilən dünya çempionatı zamanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevlə görüşmək şərəfinə nail oldum. Apardığımız müzakirələr olduqca ümidvericidir və bu, ölkədə velosipedin gələcəyi ilə bağlı nikbin düşünməyə əsas verir. Şübhəsiz, Azərbaycan hazırda özünü bu sahədə təsdiqləmiş ölkədir" - deyə, David Lappartien bildirib.




## Anons

***Azərbaycan polisinin 100 illiyinə həsr olunmuş yarışlar keçirilib***

Respublika yarışlarının üçüncü seçmə mərhələsi

***Yığmamız Rusiyaya yollanacaq***

Millimiz Avroliqanın üçüncü mərhələsində iştirak edəcək

Səh. 2

***Cavanşir Qurbanov:*** "İnsanın həyatda ən başlıca amalı cəmiyyətə, dövlətə faydalı olmaqdır"

Səh. 3

"Azərbaycan bu gün də öz idman ənənələrinə sadiqdir"

Səh. 6

"Azərbaycan kinosu 120: tarixi, bu günü və gələcək inkişaf perspektivləri"

Səh. 7

olimpnews.az - sizin saytınız




Güləş üzrə yığma komandamız təlim-məşq toplanışındadır

Səh. 2

*Qadın həndbolçularımızın rəqibləri müəyyənləşib*



Səh. 3

## Olimpizm

### Rusiya MOK-nun yeni rəhbəri seçilib

Rusiya Milli Olimpiya Komitəsinin (MOK) yeni prezidenti seçilib. Bu vəzifəyə təyinatı Stanislav Pozdnyakov alıb.



Rusiya Federasiyasının prezidenti Vladimir Putin Rusiya MOK-nun yeni rəhbərini qəbul edib. Ölkə rəhbəri idman qurumunun idman federasiyaları, ictimaiyyətlə və Beynəlxalq Olimpiya Komitəsi (BOK) ilə sıx və qarşılıqlı əməkdaşlığının vacibliyini vurğulayıb.

"Rusiya idmanında indiyə qədər yaxşı uğurlar və nəticələr əldə edilib. DÇ-2018 turnirinin ölkəmizdə keçirilməsi də bu uğurlardan biridir. Amma nöqsanlar da az deyil. Bunun üçün Rusiya MOK-u idman federasiyaları, ictimaiyyətlə, BOK-la çox fəal əməkdaşlıq etməlidir", - deyə Rusiya prezidenti bildirib.

### Polşanın idman naziri seçkilərdə iştirak edəcək

Polşanın idman naziri Vitold Banka Beynəlxalq Antidopinq Agentliyinin (WADA) prezidenti seçkilərində iştirak etmək istədiyini deyib.

Ona qədər bu vəzifəyə yeganə namizəd Norveçin mədəniyyət və idman naziri Lind Helleland idi.

"WADA öz bütövlüyünü itirmək üzrədir. Mən bu vəzifəyə prezident seçilsəm, rəhbərliklə idman federasiyaları arasında sıx əlaqə yaratmağa çalışacağam, kompromisə gedəcəyəm. Biz bir-birimizə hörmət etməli və bir yerdə işləməliyik ki, möhkəm antidopinq sistemi qura bilək.

Rusiyaya gəlincə, çıxılmaz vəziyyətdə qalmışıq. Biz Rusiyada antidopinq sisteminin yenidən qaydasında olacağına əmin olmalıyıq. Bunun üçün də köhnənin bərpa olunması əvəzinə yeni kriteriyalar axtarıb tapmalıyıq", - deyə Polşanın idman naziri bildirib.

### Paris-2024 Olimpiadasının ilk səfirinin adı müəyyənləşib

NBA-nın və Fransa yığmasının basketbolçusu Toni Parker 2024-cü ildə Parisdə keçiriləcək XXXIII Yay Olimpiya Oyunlarının ilk səfiri seçilib.

Paris-2024 Təşkilat Komitəsi Toni Parkeri səfir kimi bu həftə şəhərdə səfərdə olan Beynəlxalq Olimpiya Komitəsinin (BOK) üzvlərinə təqdim edib. Təqdimetmə Eyfel qülləsinin ətrafında həyata keçirilib.

"Olimpiadanın səfiri seçilməyim mənim üçün şərəfdir. Paris-2024 Təşkilat Komitəsinin rəhbəri Toni Estanqe bununla bağlı müraciət edəndə təklifini tərəddüdsüz qəbul etdim. Səfir seçilməyimdən qürur duyuram", - deyə 36 yaşlı tanınmış basketbolçu bildirib.

Toni Parker Paris şəhərinin namizədliyini Olimpiada-2024 uğrunda qızğın dəstəkləyən



idmançılardandır. Fransalı atlet 4 qat NBA çempionudur. Avropa çempionu olan basketbolçu 2 dəfə (2013 və 2014) qitənin ən yaxşı idmançısı seçilib.

# Tanınmış ictimai-siyasi xadimin 80 illik yubileyi qeyd olunub



*(əvvəli 1-ci səhifədə)*

"Samur Novruzov hələ gənclik illərindən idmançı karyerasında böyük uğurlar qazanıb. Dəfələrlə Azərbaycan çempionu titulunu qazanan və keçmiş İttifaq miqyasında tanınmış basketbolçu olan Samur Novruzov SSRİ idman ustası adına layiq görülüb. Bu gün Samur müəllimin yubiley mərasiminin məhz Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında qeyd edilməsi təsadüfi deyil. Çünki bacarıqlı idman mütəxəssisi Samur Novruzov uzun illər bu təhsil ocağına rəhbərlik edib, bədən tərbiyəsi və idman sahəsində minlərlə kadrın yetişməsində müstəsna xidmətlər göstərib", - deyə Azad Rəhimov əlavə edib.

Samur Novruzovun ölkəmizin inkişafındakı xidmətlərini yüksək qiymətləndirən mədəniyyət naziri Əbülfəs Qarayev onun yüksək insani keyfiyyətlərindən danışaraq deyib: "Dəfələrdə Samur müəllim ilə görüşlərim olub. Bir çox hallarda onunla fikir mübadiləsi aparıb zəngin həyat təcrübəsindən yararlanmışam. O, Bədən Tərbiyəsi və İdman Akademiyasına rektor təyin olunduqdan sonra ali təhsil ocağında yaxşılığa doğru mühüm dəyişikliklər müşahidə olundu. Qətiyyətliliyi və dönməzliyi ilə seçilən Samur müəllimin rəhbərliyi altında ali təhsil müəssisəsində çoxlu sayda peşəkar kadr hazırlanıb.

Ulu öndər Heydər Əliyevin Fərmanı ilə 2001-ci ildə Azərbaycan Gənclər, İdman və Turizm Nazirliyi yaradıldı. Xarici Turizm Şurası ləğv olunaraq nazirliyin tabeliyinə verildi. Həmin vaxt Şuraya Samur Novruzov rəhbərlik edirdi. Mən düşündüm ki, Samur Novruzovsuz bu sahədə işləmək çətin olacaq. Həmişə onunla turizmin inkişafı haqqında müzakirələr aparırdım. Sevindirici haldır ki, hazırda qüvvədə olan "Turizm haqqında" qanunun hazırlanmasında Samur Novruzovun müstəsna xidmətləri olub".

Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə Samur Novruzovla bağlı xatirlərindən danışaraq bildirib ki, o, daim mərdliyi ilə seçilib. Onun qəbul etdiyi düzgün qərarlar, atdığı addımlar həmişə ölkəmizin çiçəklənməsinə xidmət göstərib. Dostcanlı insan olan Samur müəllim həmişə yaxınlarının və dostlarının problemləri ilə maraqlanır, onlara kömək etməyə çalışırdı.

Milli Məclisin regional məsələlər komitəsinin sədri Arif Rəhimzadə və parlamentin deputatı Ağacan Abiyev Samur Novruzovla bağlı xatirələrini bölüşüb, onun yüksək insani keyfiyyətlərindən danışıblar.

Yubilyarın oğlu Namiq Novruzov atasının xatirəsinin yad olunmasına və tədbirin təşkilinə görə minnətdarlığını bildirib.

Tədbir konsert proqramı ilə davam edib.

Sonda tədbir iştirakçılarına Samur Novruzovun həyat və yaradıcılığından bəhs edən "Şəxsiyyətin həyat hekayəsi" kitabı təqdim olunub.

# Azərbaycan polisinin 100 illiyinə həsr olunmuş yarışlar keçirilib




Azərbaycan polisi 100 illik şanlı tarixi ərzində şərəfli yol keçərək dövlətçiliyimizin əsas dayaqlarından birinə çevrilib, ölkəmizdə müstəqilliyin və daxili sabitliyin təmin olunmasında mühüm rol oynayıb. Bu dövr ərzində Azərbaycan polisi cinayətkarlığa qarşı mübarizədə qətiyyətli addımlar atıb, qanunun aliliyinin, insanların təhlükəsizliyinin təmin olunması, ictimai asayişin qorunması kimi çətin vəzifələrin öhdəsindən layiqincə gəlib.

Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən verilən məlumata görə bildiriblər ki, bu münasibətlə nazirliyin İdman Cəmiyyətində yeniyetmə və gənclər arasında keçirilən birinciliklər də möhtəşəm yubileyə dəyərli töhfədir.



Yarışların açılış mərasimində çıxış edən DİN İdman Cəmiyyətinin sədri, Olimpiya, dünya və Avropa çempionu, polis polkovniki Zemfira Meftaxetdinova ölkədə ictimai-siyasi sabitliyin, əmin-amanlığın, dincliyin təmin edilməsində polisin fəaliyyətindən danışaraq bildirib ki, 1918-ci il iyulun 2-də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə əsası qoyulan milli polis ötən dövr ərzində çətin və şərəfli yol keçib. Ümummilli liderimiz Heydər Əliyev müstəqil Azərbaycan polisinin formalaşmasına, peşəkarlığının artırılmasına daim böyük diqqət və qayğı göstərib. Dahi rəhbərin 1993-cü il iyunun 15-də hakimiyyətə qayıdışından sonra hüquq mühafizə orqanlarının işində dönüş yaranıb, mütəşəkkil cinayətkarlığa, korrupsiyaya, terrorizmə, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə gücləndirilib.

Qeyd edilib ki, DİN İdman Cəmiyyəti daxili işlər orqanlarının tərkibində yaranmış ilk qurumlardan biri olmaqla ölkəmizin ən qocaman idman təşkilatlarından biri kimi dövlətimizin idman həyatında önəmli rol oynayıb, məşqçilərin, yüksək səviyyəli idmançıların yetişməsində parlaq qələbələr əldə edib.

Olimpiya, dünya və Avropa çempionları Lyudmila Şubina və Namiq Abdullayev ölkəmizin zəngin idman ənənələrindən danışaraq Azərbaycanda Olimpiya hərəkatının formalaşmasında gənclərə və yeniyetmələrə dövlət qayğısının göstərilməsində Ulu Öndərimizin, onun siyasi kursunu davam və inkişaf etdirən Prezident İlham Əliyevin əvəzsiz xidmətlərini minnətdarlıq hissi ilə diqqətə çatdırıblar.

Daha sonra güləşin sərbəst və yunan-Roma növləri, boks, bədii gimnastika və çerlidinq üzrə açıq birinciliklərə start verilib. Dörd gün davam edən yarışlarda paytaxtın və respublikamızın əksər bölgələrinin idman klub və cəmiyyətlərinin yetirmələri qüvvələrini sınayıblar. Sonda qaliblərə kubok, diplom və medallar təqdim olunub.

Qeyd edək ki, yubileyə həsr olunmuş yarışlar digər idman növləri üzrə davam edir.

# Güləş üzrə yığma komandamız təlim-məşq toplanışındadır

Güləş üzrə ölkənin yığma komandaları təqvim planında nəzərdə tutulan qrafik üzrə qarşıdan gələn reytinq xarakterli beynəlxalq turnirlərə hazırlıqları davam etdirir.

Sərbəst güləş üzrə böyüklərdən ibarət yığma komandamızın üzvləri iyunun 24-dən etibarən Göygöl Olimpiya İdman Kompleksində təlim-məşq toplanışındadır. Yığma komandanın baş məşqçisi Firdovsi Umudovun rəhbərlik etdiyi məşqçilər korpusu toplanışa yığmanın üzvü olan 22 idmançını cəlb edib. 7 iyula qədər davam edəcək ümumi və xüsusi fiziki hazırlıq üzrə təlim-məşq toplanışından sonra yığmanın üzvləri Olimpiya Güləş Mərkəzində hazırlıqları davam etdirəcəklər.

Yığmanın üzvləri iyulun 27-29-da Türkiyənin İstanbul şəhərində keçiriləcək Yaşar Doğunun xatirəsinə həsr olunan reytinq xarakterli beynəlxalq turnirdə qüvvələrini sınayacaqlar.

Olimpiya Güləş Mərkəzində məşqləri davam etdirən yunan-Roma güləşi üzrə böyüklərdən ibarət yığma komandanın üzvləri isə iyulun 2-dən etibarən Türkiyəyə yollanacaqlar. Baş məşqçi Şaban Donatın rəhbərlik etdiyi məşqçilər korpusu bu ölkənin yığma komandası ilə birgə təlim-məşq toplanışında iştirak edəcək heyətə əsas yığmanın üzvləri ilə yanaşı, gənclərdən ibarət komandanın üzvlərindən də bir neçəsini cəlb edib. Ümumilikdə qonşu ölkədə 16 nəfər yunan-Roma güləşçisi hazırlıq keçəcək. Təlim-məşq toplanışı başa çatdıqdan sonra yığmanın üzvləri iyulun 20-22-də İstanbulda keçiriləcək Vehbi Emrenin xatirəsinə həsr olunan reytinq xarakterli beynəlxalq turnirdə qüvvələrini sınayacaqlar.

# Respublika yarışlarının üçüncü seçmə mərhələsi



İyulun 7-15-də Azərbaycanın bütün bölgələrini əhatə edən ağırlıqqaldırma üzrə respublika yarışlarının üçüncü seçmə mərhələsi keçiriləcək. Yarışlar Xırdalan, Lənkəran və Samux şəhərlərində keçiriləcək. Xırdalanda iyulun 7-8-də Sumqayıt, Xırdalan, Qobustan, Şamaxı, İsmayıllı və Bakıdan olan atletlər mübarizə aparacaqlar. İyulun 11-12-də Lənkəranda Cəlilabad, Neftçala, Lənkəran, Lerik və Astaranı, ayın 14-15-də isə Samuxda Goranboy, Gəncə, Samux, Qazax, Yevlax, Şəki və Qaxı təmsil edən atletlər körpücük üzərinə çıxacaqlar.

Yarış şəxsi xarakter daşıyır və iştiraka yalnız texniki cəhətdən hazırlıqlı, yaşı ən azı 12 olan idmançılar buraxılacaq. Mərhələ yarışlarında 2000-2006-cı illər və daha böyük təvəllüdlü kişilər və qadınlar, müvafiq yaş qruplarında mübarizə aparacaqlar. Qaliblər Sinkleyr cədvəli üzrə müəyyən ediləcək.

Mərhələ yarışları ildə 4 dəfə keçirilir.

Məqsəd regionlarda atletlərin hazırlıq vəziyyətlərinin yoxlanılması, ehtiyat qüvvənin nəzərdən keçirilməsi, güclü idmançıların seçilməsi, ağırlıqqaldırma idman növünün şəhər, rayon, qəsəbə və kəndlərdə təbliği və inkişafı, idmançılar və məşqçilər arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi, idmançıların ustalıq səviyyəsinin artırılması və təkmilləşdirilməsidir.

# Millimiz Avroliqanın üçüncü mərhələsində iştirak edəcək



Çimərlik futbolu üzrə Azərbaycan yığması iyulun 20-22-də Avroliqanın Moskvada keçiriləcək üçüncü mərhələsində iştirak edəcək. Azərbaycan yığması İsveçrə, Polşa və Rusiya komandaları ilə birgə A qrupunda çıxış edəcək.

Yığmamız iyulun 20-də Rusiya ilə, ertəsi gün İsveçrə ilə, turnirin sonuncu günü isə Polşa komandası ilə qarşılaşacaq.

B qrupuna Litva, Yunanıstan, Moldova və Qazaxıstan komandaları daxildir.

Xatırladaq ki, Avroliqanın Bakıda keçirilən birinci mərhələsində Azərbaycan yığması Fransa (4:1), Belarus (1:4) və Portuqaliya (0:6) komandaları ilə qarşılaşaraq qrupda üçüncü olub.

# *Ölkə birinciliyinə start verilib*

Azərbaycan Stolüstü Tennis Federasiyasının təşkilatçılığı ilə 2006-cı illər təvəllüdlü və daha kiçik yaşlı tennisçilər arasında Azərbaycan çempionatına start verilib.

Şəxsi xarakter daşıyan turnirdə ölkənin müxtəlif regionlarından olan 100-dən çox idmançı mübarizə aparır.

Çempionata iyunun 29-da yekun vurulacaq.

* * *




Beynəlxalq Stolüstü Tennis Federasiyası tərəfindən Beynəlxalq dərəcəli hakim adını almaq üçün keçirilən imtahanın nəticələri açıqlanıb. Dünyanın müxtəlif ölkələrindən hakimlərin qatıldığı imtahanda iştirak edən Sara Sultanova və Xəyalə Qiyasova uğur qazanaraq Beynəlxalq dərəcəli hakim adına layiq görülüblər. Bununla da, stolüstü tennis üzrə beynəlxalq yarışları idarə etmək hüququ qazanan hakimlərimizin sayı 6-a çatıb.

# Yığmamız Rusiyaya yollanacaq




İyulun 18-də Rusiyanın Yekaterinburq şəhərində cüdoçular arasında qarışıq komandalar üzrə Avropa çempionatı keçiriləcək. Yarışda Azərbaycan yığması da mübarizə aparacaq.

Çempionatda ölkəmizi Telman Vəliyev (73 kq), Tural Səfquliyev (90 kq), Uşangi Kokauri, Şahin Qəhrəmanov (hər ikisi +90 kq), İçinxorlu Munxtsedev (57 kq), Aidə Baxışova, Günel Həsənli (hər ikisi 70 kq) və İrina Kindzerska (+70 kq) təmsil edəcəklər.

Yarışda ümumilikdə 21 ölkəni təmsil edən 166 (84 kişi, 82 qadın) cüdoçu qüvvəsini sınayacaq.

Qeyd edək ki, yarışda kişilər 73 kq, 90 kq, +90 kq, qadınlar isə 57 kq, 70 kq və +70 kq çəki dərəcələrində mübarizə aparacaqlar.

* * *

İyulun 14-15-də Almaniyada cüdo üzrə Avropa kuboku yarışı keçiriləcək. Kişilərdən ibarət yığmamızın baş məşqçisi Ruslan Maşurenko Saarbrükkendə təşkil olunacaq yarışda 14 cüdoçuya şans verəcək.

Qadınlardan ibarət yığmamızın baş məşqçisi Natiq Bağırov isə Avropa kubokunda 5 yetirməsini sınayacaq. Bunlar Gülşən Nəzərova, Şəfəq Məmmədova (hər ikisi 52 kq), Aidə Baxışova, Günel Həsənli (hər ikisi 70 kq) və Gözəl Zutovadı (78 kq).

Qeyd edək ki, yarışda 24 ölkəni təmsil edən 463 (299 kişi, 164 qadın) cüdoçunun mübarizə aparacağı gözlənilir.

* * *

Bu ilin sentyabr ayında Bakıda təşkil olunacaq cüdo üzrə dünya çempionatının təbliğinə həsr olunan Federasiya kubokunun final mərhələsi keçirilib. Göygöl rayonunun ev sahibliyi etdiyi turnirdən bir gün əvvəl bölgə hakimlərinin seminarı təşkil olunub. Seminarda cüdonun yeni qayda və qanunlarının tətbiqi əyani şəkildə göstərilib və fikir mübadilələri aparılıb.

Kiçik yaşlı yeniyetmələrin regionlararası Federasiya kubokunun finalında ən güclü komandalar mübarizə aparıb. Bütün rəqiblərinə qalib gələn "Bakı - 1" komandası birinci yerə layiq görülüb. "Şimal-Qərb" komandası yarışın gümüş medalını qazanıb. "Bakı-2" və "Sumqayıt-1" komandaları bürünc medallara sahib olublar.

İlk dəfə olaraq keçirilən Federasiya kubokunun qalib və mükafatçılarına diplom, kubok və medallar təqdim olunub.

Bizim müsahibə

*Bu dünyada mənalı, zəngin ömür yaşamaq hər kəsə nəsib olmur. O kəslər xoşbəxtdirlər ki, Tanrıdan taleyinə düşən ömür payını gözəl və mənalı yaşayırlar. Bir də o kəslər xoşbəxtdirlər ki, özlərindən sonra iz qoyub gedirlər bu dünyadan. Müsahibimiz tanınmış məşqçi-idmançı, əməkdar bədən tərbiyəsi və idman xadimi, professor Cavanşir Qurbanov taleyinə düşən ömür payını mənalı yaşayan insanlardandır. Bu insan haqqında çox xoş sözlər söyləmək olar -alicənab, qayğıkeş, təvazökar, sadə, səmimi, əsil ağsaqqal. Cavanşir müəllim vətənini, xalqını, dövlətini ürəkdən sevən insandır. Səbirli, təmkinli, ağsaqqal insanlara cəmiyyətimizdə hər zaman hörmət və ehtiram var.*

*Ölkəmizin idman həyatında özünəməxsus dəsti-xətti olan insanların fəaliyyətinə geniş yer ayıran "Olimpiya dünyası" qəzeti bu dəfə ömrünün 71-ci yayını yaşayan Cavanşir Qurbanovun zəngin ömür yolundan söhbət açacaq.*



# Cavanşir Qurbanov:
# "İnsanın həyatda ən başlıca amalı cəmiyyətə, dövlətə faydalı olmaqdır"

***- Cavanşir müəllim, ölkəmizin idman həyatında tanınmış mütəxəssislərindənsiniz. Necə oldu ki, həyatınızı idmana həsr etdiniz?***

- Mən 1947-ci ildə dekabrın 6-da Bakı şəhərində anadan olmuşam. Xızı-Bərmək mahalının qədim Xələnc kəndinin pəhləvanlarının nəslindən olduğum üçün qürur duyuram. Yəqin bu səbəbdəndir ki, zorxanaya, güləş idman növünə sevgim böyükdür. Vaxtilə Mərkəzi Ordu İdman Klubunda (MOİK) sərbəst güləşlə məşğul olmuş, dəfələrlə Bakı və respublika çempionu adını qazanmışam. 1969-1972-ci illərdə Bakı Xalq Maarifi Şöbəsinin güləş məktəbində məşqçi, 1972-1990-cı illərdə həmin məktəbin direktoru işləmişəm. 1972-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna (indiki Azərbaycan İqtisadiyyat Universiteti) qəbul oldum. Amma idmana olan həvəsim məni sonunda Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman İnstitutuna (indiki AzDBTİA) gətirdi. 1968-1972-ci illərdə bu ali təhsil ocağında idmanın sirrlərinə yiyələndim. 1972-1992-ci illərdə Bakı şəhəri Xalq Maarifi Şöbəsinin Uşaq-Gənclər Güləş İdman Məktəbinin direktoru vəzifəsində çalışdım. Uzun müddət Azərbaycan Güləş Federasiyasında (AGF) işləmişəm. 1998-2007-ci illərdə AGF-nin I vitse-prezidenti, 2007-2017-ci illərdə AGF-nin regionlar üzrə vitse-prezidenti kimi fəaliyyət göstərmişəm. İdman və bədən tərbiyəsinə aid bir çox elmi-nəzəri-metodik vəsaitlərin müəllifiyəm. SSRİ-nin idman ustası, ümumittifaq dərəcəli, eyni zamanda, beynəlxalq



dərəcəli hakiməm. Yetirmələrimin arasında, dünya və Avropa çempionları az deyil.

***- Hansı mükafatlarınız vardır?***

- İdman sahəsində əməyim dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Azərbaycan Respublikasının Əməkdar məşqçisi, "Fəxri Bədən Tərbiyəsi və İdman İşçisi" adlarına layiq görülmüşəm. 2008-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adını almışam. 2017-ci ildə isə idman sahəsində uzunmüddətli səmərəli fəaliyyətimə görə 2-ci dərəcəli "Vətənə xidmətə görə" Ordeni ilə təltif edilmişəm.

> **"İnsan elə ömür yaşamalıdır ki, özündən sonra bir iz qoyub getsin"**

***- Siz bir el ağsaqqalı kimi çoxlarına arxa, kömək olmusunuz...***

- İnsan elə ömür yaşamalıdır ki, özündən sonra bir iz qoyub getsin. Bu dünyada ancaq yaxşılıq qalır və edilən yaxşılıqlar sonda insanın özünə qayıdır. Özünə qayıtmasa da, balalarının, nəvələrinin qabağına çıxır. İnsan öləndən sonra qəbiristanlığa 3 şeylə gedir- qohumları, tabutu və əməlləri ilə. Əməllər qəbirə girir, qalanları isə geri qayıdır. Ömrüboyu çalışmışam ki, ətrafımda olanlara və ümumiyyətlə, ehtiyacı olan insanlara kömək edim, əl tutum. Nə gizlədim, çoxlarına ümid, pənah yeri olmuşam. Dəfələrlə mənə kömək üçün müraciət edən insanların problemləri ilə bağlı müvafiq orqan və təşkilatlar qarşısında məsələ qaldırmışam və həmin məsələ öz həllini tapıb. Köməyə ehtiyacı olan idmançılara, dərs dediyim tələbələrə təmənnasız yardım etmişəm. Uzun müddətdir idman sahəsində çalışan bir insan kimi gənclərlə, tələbələrlə çox ünsiyyətdə olmuşam. Tələbələrimlə həmişə dost kimi davranmışam. İnsan xeyirxah işlər görəndə mənən zənginləşir, saflaşır, özünü rahat hiss edir.

***- Cavanşir müəllim, siz həm də gözəl ailə başçısı, nümunəvi atasınız?***

- Ailə ictimaiyyətin təməl daşı hesab olunur. Ən qədim sosial institut olan və "kiçik dövlət" adlandırılan ailə dövlətin əsasını təşkil edir. Məhz ailə uşağı elə tərbiyə edə bilər ki, o, vətənə, torpağa, elə-obaya, orduya, şəhidlərimizə məhəbbət, düşmənə isə nifrət ruhunda böyüsün. Ailədə uşağa başa salınmalıdır ki, vətənpərvərlik hissi bütün şəxsi maraqlardan üstün olan bir hissdir. Hələ qədimdən hər bir azərbaycanlı üçün ailə dəyərləri, onun mənəvi-əxlaqi keyfiyyətləri həmişə xüsusi önəm daşıyıb. Halal ömür sürmüşəm, harama əl uzatmamışam. Halal süfrənin bini-bərəkəti kəsilməz. Artdıqca artar. Həyatı zənginləşdirən xeyirxah əməllər, halal işlərdir.

Düşünürəm ki, milli mənəvi dəyərlərimiz qorunmalı, öz əhəmiyyətini itirməməlidir. El ağsaqqalı ağsaqqalığa öz evindən başlamalıdır. Özünü elə aparmalıdır ki, ailəsindəki dəyəri cəmiyyətə inteqrasiya edə bilsin. Çalışmışam ki, övladlarıma düzgün tərbiyə verim, onları vətənə, xalqa layiqli övlad kimi yetişdirim. Həmişə cəhd etmişəm ki, onlar xeyirxah, tədbirli, mehriban, ağsaqqala hörmət, kiçiyə məhəbbət ruhunda tərbiyə olunsunlar.İnsan cəmiyyətdə nüfuzlu yer tutmaq üçün əvvəlcə övladlarına nümunə olmalıdır. Xoşbəxtəm ki, ağıllı, tərbiyəli övladlarım var və mənim yolumu gətirirlər.

***- Neçə övladınız var?***

- İki oğlum, bir qızım var. Oğlum Cəlal Qurbanov şairdir, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Vətənpərvərlik mövzusu onun şeirlərinin ana xəttini təşkil edir. "Mən azərbaycanlıyam", "Azərbaycan", "Qarabağın səsi", "Zəfərə doğru" kimi şeirləri insanlar tərəfindən çox sevilir. Cəlalın 20-dən çox şeirinə mahnılar bəstələnib. Digər oğlum Samir gömrük sahəsində çalışır. Qızım Samirə isə müəllimədir.Övladlarımdan çox razıyam.

***- Eşitdik, Həcc ziyarətində olmusunuz?***

- Həcc ziyarətinə getmək çoxdankı arzum idi. Ön il Tanrı mənə bu xoşbəxtliyi nəsib etdi. Hər zaman Allaha yaxın insan olmuşam. Şükür edirəm ki, o müqəddəs ziyarət yerini, Kəbəni dolanmaq bir müsəlman kimi mənə də qismət oldu.

> **"Hər zaman öz gücümə arxalanmışam"**

***- Bu gün həyatda sahib olduqlarınıza görə kimə borclusunuz?***

- 71 yaşım var. Qazandığım uğurlar göz qabağındadır və hər zaman həyatda nəyəsə nail olmaq üçün öz gücümə arxalanmışam. Bu gün nail olduğum bu mərtəbəyə halal zəhmətim, işgüzarlığım sayəsində gəlib çatmışam. Bu gün Azərbaycan idmanında nəsə deyə bilmişəmsə, nəsə bir iş görmüşəmsə, özümü xoşbəxt hesab edirəm.

***- Siz həm də uzun müddət Azərbaycan Güləş Federasiyasında yüksək vəzifələrdə çalışmısınız.***

- Uzun müddət Azərbaycan Güləş Federasiyasının (AGF) regionlar üzrə vitse-prezidenti olmuşam. 1996-2006-cı illərdə federasiyanın I vitse-prezidenti vəzifəsində çalışmışam. Bir müddət "Təfəkkür" Universitetində bədən tərbiysi və idman kafedrasının müdiri işləmişəm, tələbələrə idmanın sirrlərini öyrətmişəm.

***- "Cavanşir" idman klubunun yaranmasında məqsəd nə idi?***

- "Cavanşir" idman klubu ötən il istifadəyə verilib. Klub Abşeron rayonunun Qobu qəsəbəsində yerləşir və yunan-Roma güləşi üzrə fəaliyyət göstərir. Bu idman klubunun




açılmasında məqsəd uşaq və gəncləri idmana cəlb etmək, gələcəkdə onların peşəkar idmançı kimi yetişməsinə kömək etməkdir. Hazırda "Cavanşir" klubunda 100 nəfərdən çox uşaq və yeniyetmə güləşin sirrlərinə yiyələnir.

***- Siz həm də "Cabir Novruz" Mədəniyyət Fondunun prezidentisiniz. Fondun fəaliyyəti nədən ibarətdir?***

- "Cabir Novruz" Mədəniyyət Fondu mədəniyyət sahəsində fəaliyyət göstərən tanınmış ziyalıların, elm xadimlərinin, şairlərin yubiley və gecələrini təşkil edir.Fondun rəhbərliyi və təşkilatçılığı ilə xeyli iş görülüb,vacib və əhəmiyyətli tədbirlər həyata keçirilib. Təkcə onu deyim ki, "Cabir Novruz" Mədəniyyət Fondunun təşkilatçılığı ilə mərhum vokal ifaçımız, müğənni Hüseynağa Hadıyevin 70 illik yubileyi, cərrah-alim, tibb elmləri doktoru, professor, əməkdar elm xadimi Bəybala Abbasovun 80 illiyi yüksək səviyyədə qeyd olunub. Bu ilin mart ayında görkəmli şairimiz Cabir Novruzun 85 illik yubileyi ilə bağlı tədbirdə Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev də iştirak edirdi. Bundan başqa, fondumuzun təşkilatçılığı ilə Cəfər Cabbarlı, Mikayıl Müşfiq, Məmməd Arif, Cabir Novruza həsr olunmuş müxtəlif səpkili tədbirlər keçirilib. Qeyd edim ki, Cabir Novruzun oğlu və fondumuzun işində həmişə yaxından iştirak edən Müşfiq Novruzovun bugünlərdə qəfildən vəfat etməsi bizi çox kədərləndirdi. Allah ona rəhmət eləsin.

> **"Digər qardaşlarım da idmana yaxın insanlardırlar"**

***- Deyəsən, Qurbanov qardaşlarından ömrün idmana həsr eləyən təkcə Siz deyilsiniz?***

- Qardaşım Xanlar Qurbanov Azərbaycan Bədən Tərbiyəsi və İdman İnstitutunu bitirib. Tələbəlik illərində sərbəst güləş üzrə beynəlxalq yarışların iştirakçısı olub, bir sıra mükafatlara layiq görülüb. 1970-ci ildə idman ustası, 1982-ci ildən ümumittifaq dərəcəli hakim adını alıb. İnstitutu bitirdikdən sonra həmin ali təhsil ocağının güləş kafedrasında müəllim kimi işləməyə başlayıb. O, Azərbaycan Milli İdman Assosasiyasının prezidenti, Milli Olimpiya Komitəsinin üzvüdür. Xanlar müəllim elm və təhsil sahəsində, bədən tərbiyəsi və idmanın inkişafında xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif edilib. Hazırda güləş kafedrasının müdiridir. Bir sıra kitab və məqalələrin müəllifidir. Nəinki, Xanlar, digər qardaşlarım Əlpənah, Ağayusif və Xanmurad Qurbanovlar da idmana çox yaxın insanlardırlar.

***- Uşaq və gənclərin fiziki və mənəvi inkişafı barədə nə deyə bilirsiniz?***

- Azərbaycanda idmanın və Olimpiya Hərəkatının inkişafı ümummilli, dahi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderin əsasını qoyduğu idman siyasəti Azərbaycan Respublikasının prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə idmana, bədən tərbiyəsinə xüsusi diqqət və qayğı göstərilir. Sağlam gənc nəslin yetişdirilməsi dövlətimizin prioritet istiqamətlərindəndir. Deyirlər, sağlam bədəndə sağlam ruh olar. Uşaq və gəncləri zərərli vərdişlərdən uzaqlaşdırmaq üçün idman vacib şərtdir. Uşaq və gənclərin idmanla məşğul olmaları üçün paytaxt və regionlarda mümkün olan bütün şərait yaradılıb.

Gənc nəslin tərbiyə olunması üçün onlara düzgün istiqamət göstərilməlidir. Savadlı, bilikli gənclərimiz çoxdur. Amma bəzən onların arasında zərərli vərdişlərə meyilli olanları da görürük. Uşaq və gəncləri bu yoldan qaytarmaq üçün ailə, təhsil ocaqları əlbir işləməlidirlər. Kitablara qarşı onlarda maraq oyadılmalıdır. Son vaxtlar gənclər kitabdan, mütaliədən daha çox sosial şəbəkələrə, mobil telefonlara üstünlük verirlər.

***- Cavanşir müəllim, gənclərə daha çox nəyi tövsiyə edərdiniz?***

- İnsan bu dünyaya yaşayıb yaratmaq, gərəkli olmaq üçün gəlir. İnsanın həyatda ən başlıca amalı cəmiyyətə, dövlətə faydalı olmaqdır. Mən gənclərə daha çox bu keyfiyyətlərə yiyələnməyi tövsiyə edirəm.

***Səadət Hakıyeva***




# *Qadın həndbolçularımızın rəqibləri müəyyənləşib*

Gələn il noyabrın 29-dan dekabrın 15-dək Yaponiyada təşkil olunacaq qadın həndbolçular arasında dünya çempionatının ilk təsnifat mərhələsinin püşkü atılıb. Şotlandiyanın paytaxtı Qlazqoda keçirilən püşkün nəticəsinə əsasən, 16 komanda dörd qrupda yarışacaq. Azərbaycan həndbolçuları dördüncü qrupda Türkiyə, Makedoniya və İslandiya təmsilçiləri ilə üz-üzə gələcəklər.

Qrup liderləri gələn ilin iyununda keçiriləcək pley-off mərhələsində mübarizə aparmaq hüququ qazanacaqlar. İyirmi dörd komandanın yarışacağı dünya çempionatında Avropanı 13 yığma təmsil edəcək. Fransa 2017-ci ildə qazandığı çempionluğa artıq mundialda yerini təmin edib. Digər iştirakçılar isə Fransada keçiriləcək "EHF EURO 2018" turnirində ilk üçlükdə qərarlaşan millilər və Avropa pley-off mərhələlərində növbəti mərhələyə yüksələn doqquz yığma olacaq.










X Ü S U S İ B U R A X I L I Ş - 4

# DÇ-2018: Son çempionun fiaskosu bütün dünyanı heyrətləndirdi

*Təsnifatda favoritlərdən bir neçəsi mübarizəni dayandıracaq*

## Ev sahibləri dünya çempionatında ilk dəfə güclü rəqib gördü

**A qrupu**

***III tur***

**Uruqvay - Rusiya - 3:0 (2:0)**
**Qollar:** Luis Suares, 10, Denis Çerışev, 23 (öz qapısına), Edinson Kavani, 90+2
**Sarı vərəqələr:** Rodriqo Bentankur, 59 - Yuri Qazinski, 9; İqor Smolnikov 27, 36
**Qırmızı vərəqə:** İqor Smolnikov, 36
**Hakimlər:** Malanq Didhyu, Cibril Kamara, El Haci Malik Samba (hamısı Seneqal),
***25 iyun. Samara. "Kosmos Arena", 41970 tamaşaçı***

Dünya çempionatının 12-cü günündə sonuncu turun oyunlarına start verilib. Günün ilk oyunları A qrupunda yer alan komandaların mübarizəsi ilə yadda qalıb. Belə ki, 1/8 finala vəsiqəni təmin edən iki komanda Uruqvay və Rusiya qrup liderliyi üçün yarışıblar. Cənubi amerikalılar meydan sahiblərinə 3:0 hesabı ilə qalib gələrək qrup mərhələsini birinci yerdə tamamlayıb.



## Salahın "silahı" gücsüz oldu

**A qrupu**

**Səudiyyə Ərəbistanı - Misir - 2:1 (1:1)**
**Qollar:** Əl-Fərəc, 45+6 (pen.), Əl Davsari, 90+5 - Salah, 22
**Sarı vərəqələr:** Ali Qabr, 45; Ahmed Fathi, 86
**Hakimlər:** Vilmar Roldan, Aleksandr Qusman, Kristian de la Krus (Kolumbiya)
***25 iyun. Volqoqrad. "Sentral Arena", 36823 tamaşaçı***

| | *O* | *Q* | *H* | *M* | *T/F* | *X* |
|---|---|---|---|---|---|---|
| *1. Uruqvay* | *3* | *3* | *0* | *0* | *5-0* | *9* |
| *2. Rusiya* | *3* | *2* | *0* | *1* | *8-4* | *6* |
| *3. S. Ərəbistanı* | *3* | *1* | *0* | *2* | *2-7* | *3* |
| *4. Misir* | *3* | *0* | *0* | *3* | *2-6* | *0* |

A qrupundakı digər oyun səkkizdəbir finala çıxmaq şansını itirən Səudiyyə Ərəbistanı və Misir komandaları arasında keçirilib. Görüş Səudiyyə Ərəbistanı futbolçularının 2:1 hesablı qələbəsi ilə başa çatıb. Beləliklə, çempionata iddialı gələn "fironlar" keçirdikləri hər üç oyunda məğlub olaraq qrupda dördüncü yeri tutublar. Səudiyyə Ərəbistanı millisi isə 3 xalla üçüncü oldu. Bütün diqqətləri öz üzərinə çəkən Məhəmməd Salah dünya çempionatını uğursuz tərk etdi.

Son turdan "Rus drujinası" üzərində qələbə qazanan "Səma olimpiyaçıları" isə qrupu birinci pillədə başa vuraraq 1/8 finala yüksəlib.

## Cənub qonşularımız son saniyəyə qədər mübarizə apardılar

**B qrupu**

***III tur***

**İran - Portuqaliya - 1:1 (0:1)**
**Qollar:** Ansarifard, 90 (pen.) - Rikardo Quarejma, 45



**Sarı vərəqələr:** Ehsan Hacı Safi, 52; Sərdar Azmun, 54 - Rafael Gerrero, 33; Rikardo Quarejma, 64; Kriştianu Ronaldo, 83; Sedrik Suares, 90
**Hakimlər:** Enrike Kaseres, Eduardo Kardoso, Xuan Sorrilya (Paraqvay)
***25 iyun. Saransk. "Yubileyni" stadionu, 41685 tamaşaçı***

Günün son oyunları B qrupunun iştirakçıları arasında oynanılıb. Qrupda 1/8 finala çıxmaq şansı davam edən 3 yığma gərgin mübarizə aparıb. Son Avropa çempionları "Yubileyni Arena"da İran millisi ilə qarşılaşıb. Gərgin mübarizə şəraitində keçən oyunun birinci hissəsinin son dəqiqələrində Quarejma Portuqaliya millisini hesabda irəli çıxarıb. Lakin Portuqaliya millisi bu üstünlüyünü sona qədər qoruya bilməyib. "İran pələngləri" ikinci hissənin sonuncu dəqiqəsində vurduqları qolla məğlubiyyətdən xilas ola biliblər - 1:1. Oyuna əlavə olunmuş dəqiqələrdə İran komandası hətta qələbə topunu da vura bilərdi. Lakin Karim Ansarifard real qol vəziyyətindən yararlana bilməyib. Beləliklə, görüş 1:1 hesabı ilə yekunlaşıb. Bu qələbə ilə Portuqaliya millisi qrup ikincisi kimi 1/8 finala yüksəlib.

## "Toredorlar"lar növbəti mərhələyə çətinliklə keçdi

**B qrupu**

**İspaniya - Mərakeş - 2:2**
**Qollar:** İsko, 19, Yaqo Aspas, 90 - Butaib, 14, En Nesri, 81

**Sarı vərəqələr:** Karim El Ahmadi, 21; Nordin Amrabat, 29; Manuel Da Kosta, 31; Mbark Bussufa, 31; Munir, 88; Əşrəf Hakimi, 92
**Hakimlər:** Ravşan İrmatov, Abduhamidillo Rasulov, Cahonqir Saidov (hamısı Özbəkistan)
***25 iyun. Kaliningrad."Baltika Arena", 33973 tamaşaçı***

| | *O* | *Q* | *H* | *M* | *T/F* | *X* |
|---|---|---|---|---|---|---|
| *1. İspaniya* | *3* | *1* | *2* | *0* | *6-5* | *5* |
| *2. Portuqaliya* | *3* | *1* | *2* | *0* | *5-4* | *5* |
| *3. İran* | *3* | *1* | *1* | *1* | *2-2* | *4* |
| *4. Mərakeş* | *3* | *0* | *1* | *2* | *2-4* | *1* |

Bu qrupdakı digər oyun səkkizdəbir finala çıxmaq şansını itirən Mərakeş və qrup liderliyi üçün mübarizə aparan İspaniya komandaları arasında keçirilib. Görüş 2:2 hesabı ilə başa çatıb. Bu nəticəyə baxmayaraq, İspaniya millisi qrup birincisi kimi növbəti mərhələyə vəsiqə qazanıb.

Qeyd edək ki, mundialın səkkizdəbir final mərhələsində İspaniya Rusiya ilə, Portuqaliya millisi isə Uruqvay yığmaları ilə qarşılaşacaq.

*(ardı 5-ci səhifədə)*

## DÇ xəbərləri

### Futbolçu qırmızı vərəqəyə görə ölümlə təhdid edilir

Kolumbiya millisinin futbolçusu Karlos Sançez ölüm təhdidi ilə üzləşib. Buna səbəb onun dünya çempionatının ilk turu çərçivəsində Yaponiya ilə matçda qırmızı vərəqə almasıdı.

Belə ki, kolumbiyalı azarkeşlər Yaponiyaya 1:2 hesablı məğlubiyyətdə 32 yaşlı yarımmüdafiəçini günahlandırırlar. Onlar artıq bununla bağlı sosial şəbəkələrdə paylaşımlar da ediblər. 3-cü dəqiqədə meydandan qovulan Sançezi Andre Eskobarın taleyi gözlədiyini də gizlətməyiblər: "Əgər Eskobar DÇ-1994-də öz qapısına qol vurduğu üçün öldürüldüsə, o zaman Sançez də öldürülməlidir. Meyiti də mundarlanmalıdır".

Artıq bu paylaşım Kolumbiya polisini də hərəkətə keçirib. Asayiş keşikçiləri bu paylaşımların sahiblərini aşkara çıxarmaq üçün xüsusi qrup yaradıblar. Ölkə radiosu isə kiber cinayətlə bağlı istintaq başladığını açıqlayıb.

### Futbol həm sevindirir, həm də kədərləndirir

Dünya çempionatının D qrupunda yer alan Argentina və Xorvatiya millilərinin oyunu bəzi azarkeşlərdə sevinc hiss oyatsa da, bəzilərini yasa qərq edib. Belə ki, Hindistan mətbuatının məlumatına görə, Lionel Messinin "dəli" azarkeşi olan Dinu Aleks Argentinanın DÇ-2018-də uğursuz oyunlarından sonra intihar edib. Argentinanın qrupdan çıxmayacağını düşünüb, intihar edən Dinu Aleks Xorvatiya ilə oyundan sonra bir dərənin dibində ölü olaraq tapılıb. Dinu Aleksin evinə baxış keçirilən zaman məktub tapılıb. Həmin məktubda bu sözlər yazılıb: "Artıq bu dünyada baxacaq heç nəyim qalmadı. Ölümün dərinliyinə gedirəm. Leo, mən həyatımı sənə həsr etdim və sənin dünya kubokunu qaldıracağını gözlədim. Amma olmadı. Ölümümə görə heç kim məsuliyyət daşımır".

### DÇ-2018-də ilk məşqçi istefası

Misir yığmasının baş məşqçisi Hektor Kuper vəzifəsindən azad edilib. Tam tərkibli iclasdan sonra bu yöndə qərar qəbul edilib.



"Rusiyadan qayıtdıqdan sonra görüş keçirdik və hamılıqla Hektor Kuper və məşqçi heyəti ilə sağollaşmaq qərarına gəldik. Məşqçinin işini yüksək qiymətləndiririk. Onun sayəsində 3 il sonra Afrika Millətlər Kubokuna, 28 il sonra isə dünya çempionatına vəsiqə qazandıq" - deyə, bəyanatda qeyd olunub.

Xatırladaq ki, Misir yığması Hektor Kuperin rəhbərliyi altında dünya çempionatı çərçivəsində çıxdığı hər üç görüşdə (Rusiya, Uruqvay, Səudiyyə Ərəbistanı) məğlub oldu.




# DÇ-2018: Son çempionun fiaskosu bütün dünyanı heyrətləndirdi

*Təsnifatda favoritlərdən bir neçəsi mübarizəni dayandıracaq*



Dünya çempionatının 14-cü günündə daha iki qrupda 1/8 finala vəsiqə qazanan komandaların adlarına aydınlıq gəlib. Günün ilk oyunları F qrupunda mübarizə aparan komandaların mübarizəs ilə başlayıb. Bu qrupun sonuncu turunda mundialda sensasiya qeydə alınıb. Belə ki, dördqat dünya çempionu, sonuncu mundialın qalibi Almaniya yığması Cənubi Koreyaya gözlənilmədən 0:2 hesabı ilə məğlub olaraq qrupdan çıxa bilməyib. F qrupunda bütün komandaların səkkizdəbir finala yüksəlmək şansı qaldığından qarşılaşmalar gərgin idman mübarizəsi şəraitində keçib. Səkkizdəbir finala yüksəlmək üçün mütləq qalib gəlməli olan "bundestim" nəinki bu istəyinə nail olmayıb, son dəqiqələrdə buraxdığı qollarla qrupdan çıxa bilməyib. Belə ki, Cənubi Koreya yığması oyunda qalib gəlmək üçün hücuma atılan dördqat dünya çempionlarını əks-hücumda yaxalayaraq hesabı açıblar. Oyuna əlavə olunmuş vaxtda Cənubi Koreya yığması ikinci topu vuraraq qalib gəlib - 2:0. Beləliklə, Almaniya millisi dünya çempionatları tarixində ilk dəfə qrupda qalaraq mundialla vidalaşıb.

*(əvvəli 4-cü səhifədə)*

## Dünya çempionatında ən mənasız qarşılaşma

**C qrupu**

***III tur***

**Danimarka - Fransa - 0:0 (0:0)**
**Sarı vərəqə:** Mattias Yorgensen, 45+3
**Hakimlər:** Sandro Riççi, Emerson de Karvalyo, Marselu van Qasse (hamısı Braziliya)
***26 iyun. Moskva, "Lujniki" stadionu, 78011 tamaşaçı***

Çempionatın 13-cü gününün qarşılaşmalarına C qrupunun oyunları ilə start verilib. 1/8 finala vəsiqəni ötən tur təmin etmiş Fransa Danimarka ilə görüşə çıxıb. "Lujniki" stadionunda keçirilən oyun qrup liderini müəyyənləşdirmək baxımından həlledici olub. "Xoruzlar" bu matçda "Dat dinamitləri"nin müqavimətini qıra bilməyib. Qarşılıqlı hücumlar şəraitində keçən oyunda hesab açılmayıb. Beləliklə, görüş elə başladığı kimi - 0:0 hesabı ilə yekunlaşıb. Bu matç DÇ-2018-də ən mənasız və azarkeşlərin əsəblərini yerindən oynadan qarşılaşma kimi yadda qaldı.

Qeyd edək ki, Danimarka - Fransa oyunu DÇ-2018-də 0:0 hesabı ilə başa çatan ilk oyun olub. Bu oyuna qədər çempionatın keçirildiyi bütün matçlarda komandalar ən azı bir top vumağı bacarmışdılar.

## "Arxadan atılan daş", yaxud gecikən qələbə

**C qrupu**

**Avstraliya - Peru - 0:2 (0:1)**
**Qollar:** Andre Karrilyo, 18; Paolo Gerrero, 50
**Sarı vərəqələr:** Mayl Yedinak, 10; Daniel Arzani, 60; Tom Rogiç, 66; Mark Milliqan, 88 - Yoşimar Yotun, 45; Paolo Urtado, 79
**Hakimlər:** Sergey Karasyov,Anton Averyanov, Tixon Kaluqin (hamısı Rusiya)
***26 iyun. Soçi, "Fişt" stadionu, 44073 tamaşaçı***

| | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| *1. Fransa* | 3 | 2 | 1 | 0 | 3-1 | 7 |
| *2. Danimarka* | 3 | 1 | 2 | 0 | 2-1 | 5 |
| *3. Peru* | 3 | 1 | 0 | 2 | 2-2 | 3 |
| *4. Avstraliya* | 3 | 0 | 1 | 2 | 2-5 | 1 |

C qrupunun digər qarşılaşmasında Avstraliya və Peru komandaları dünya çempionatında son oyununa çıxıb. Növbəti mərhələyə yüksəlmək şanslarını itirən hər iki komanda üçün bu oyun formal xarakter daşıyıb. Soçidəki "Fişt" stadionunda təşkil olunan qarşılaşmada Peru millisi matçın 18-ci dəqiqəsində hesabı açıb. "Ağ qırmızılılar"ın heyətində Andre Karrilo fərqlənib. Görüşün ilk hissəsi Peru millisinin minimal üstünlüyü ilə yekunlaşıb - 1:0.

Rusiyalı baş hakim Sergey Karasevin idarə etdiyi oyunun 50-ci dəqiqəsində Paolo Qerrero ikinci topu "futbol kenquruları"nın qapısından keçirib. Komandaların cəhdlərinə baxmayaraq, oyunun sonunadək hesab dəyişməyib.

Beləliklə, görüş Peru millisinin 2:0 hesablı qələbəsi ilə yekunlaşıb.

Fransa millisi 7 xalla qrup birincisi, Danimarka isə 5 xalla qrup ikincisi kimi səkkizdəbir final mərhələsinə adlayıb. Peru 3 xalla qrupda üçüncü, Avstraliya yığması isə 1 xalla dördüncü pillədə qərarlaşıb.

## "Səriştəsiz Nigeriya və bəxti gətirən Argentina"

**D qrupu**

***III tur***

**Nigeriya - Argentina - 1:2 (0:1)**
**Qollar:** Viktor Mozes, 50 (pen.) - Lionel Messi, 14; Markos Roxo, 87
**Sarı vərəqələr:** Leon Baloqun, 32; Con Obi Mikel, 90+1 - Xavyer Maskerano, 49; Ever Baneqa, 64
**Hakimlər:** Cüneyt Çakır, Bahattin Duran, Tarık Ongün (hamısı Türkiyə)
***26 iyun. Sankt Peterburq, "Zenit Arena", 64468 tamaşaçı***

D qrupunda pley-offa ikinci vəsiqənin taleyi isə Nigeriya - Argentina oyunundan sonra müəyyənləşib. "Zenit Arena"da keçirilən oyun cənubi amerikalılar üçün həlledici olub. Belə ki, iki turdan sonra aktivində 1 xal olan Xorxe Sampaolinin yetirmələri 1/8 finala yüksəlmək üçün bu görüşdə mütləq qələbə qazanmalı idilər.

"Super qartallar"a isə bu oyunda heç-heçə də sərf edirdi. Bir şərtlə ki, İslandiya millisi Xorvatiya ilə oyunda xal itirsin. Düzdür, "vikinqlər" sonuncu turda Xorvatiyaya məğlub olsalar da, Nigeriya bu oyunda lazım olan bir xalı əldə edə bilmədi. Belə ki, türkiyəli baş hakim Cüneyt Çakırın idarə etdiyi oyunun 14-cü dəqiqəsində Ever Baneqanın ötürməsini Lionel Messi baxımlı qolla tamamlayıb. Bu, Rusiyada təşkil olunan dünya çempionatında 100-cü qol olub. Qeyd edək ki, son 2 dünya çempionatları tarixində də 100-cü qolun müəllifləri vaxtilə "Barselona" klubunda çıxış edən futbolçular olublar. 2010-cu ildə ilk dəfə Afrika qitəsində təşkil olunan mundialda Andres İniyesta, 2014-cü ildə isə Braziliyada keçirilən dünya çempionatında Neymar 100-cü qolunu vurub. Lionel Messi də vurduğu qolla həm 100-cü qolun müəllifi olub, həm də komandasını hesabda irəli çıxarıb. Qoldan sonra tərəflərin çoxsaylı hücum cəhdlərinə baxmayaraq, birinci hissə elə bu hesabla da başa çatıb. İkinci hissəyə daha fəal başlayan nigeriyalılar matçda hesabı bərabərləşdirməyə müvəffəq olublar. Matçın 49-cu dəqiqəsində Xaver Maskeranonun Nigeriya millisinin üzvü Leon Baloquna qarşı kobud oyununa görə, türkiyəli hakim Argentina millisinin qapısına penalti zərbəsi təyin edib. Nigeriyalı Viktor Mozes fərqlənərək hesaba tarazlıq gətirib. Qoldan sonra hücumlarının kəsərini artıran cənubi amerikalılar görüşün 87-ci dəqiqəsində Markos Roxonun qolu ilə istəyinə nail olublar. Bu qol Argentina millisinin 1/8 finala yüksəlmək şanslarını artırıb. Bu oyunla paralel keçirilən digər matçda İslandiya millisinin Xorvatiyaya 1:2 hesabı ilə məğlub olması cənubi amerikalıların işinə yarayıb. Beləliklə, Nigeriyaya 2:1 hesabı ilə qalib gələn Argentina millisi qrupda 2-ci yeri tutaraq 1/8 finala vəsiqə qazanıb.

Qeyd edək ki, Argentina millisi DÇ tarixində iki turdan sonra qrupda 1 xal qazanıb, daha sonra mərhələ keçməyi bacaran beşinci komanda olub. Bu mundiala qədər isə Türkiyə, Cənubi Koreya, Slovakiya və Paraqvay millilərı əvvəlki illərdə geridönüş edərək 1/8 finala yüksəlməyi bacarmışdı.

Bir məlumatı da qeyd edək ki, Lionel Messi və Markos Roxo dünya çempionatında sonuncu qollarını məhz 2014-cü il mundialında Nigeriya millisinə vurmuşdular. Məlumat üçün bildirək ki, həmin oyun Argentina millisinin 3:2 hesablı qələbəsi ilə başa çatmışdı.

Sonuncu turda qeydə alınan nəticələrdən sonra Xorvatiya millisi 9 xalla qrup birincisi, Argentina isə 4 xalla qrup ikincisi kimi səkkizdəbir final mərhələsinə yüksəlib. Nigeriya 3 xalla qrupda üçüncü, İslandiya yığması isə 1 xalla dördüncü pillədə qərarlaşıb.

Xorvatiya səkkizdəbir final mərhələsində Danimarka, Argentina isə Fransa yığması ilə qarşılaşacaq.

## "Damalılar" ada təmsilçilərinə güzəştə getmədilər

**D qrupu**

**İslandiya - Xorvatiya - 1:2 (0:0)**
**Qollar:** Qilfi Siqurdsson, 76 (pen.) - Milan Badelj, 53; İvan Perişiç, 90
**Sarı vərəqələr:** Emil Hallfredsson, 59; Alfred Finnboqason, 64; Birkir Sevarsson, 84 - Marko Pyaça, 14; Tin Yedvay, 83
**Hakimlər:** Antonio Mateu Laos, Pau Sebrian Devis, Roberto Dias Peres (hamısı İspaniya)
***26 iyun. Rostov, "Levberdon Arena", 43472 tamaşaçı***

| | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| *1. Xorvatiya* | 3 | 3 | 0 | 0 | 7-1 | 9 |
| *2. Argentina* | 3 | 1 | 1 | 1 | 3-5 | 4 |
| *3. Nigeriya* | 3 | 1 | 0 | 2 | 3-4 | 3 |
| *4. İslandiya* | 3 | 0 | 1 | 2 | 2-5 | 1 |

Günün son qarşılaşmaları D qrupunun iştirakçıları arasında keçirilib. 1/8 finala vəsiqəni vaxtından əvvəl təmin edən Xorvatiya millisi "Levberdon" arenada İslandiya millisi ilə qarşılaşıb. Qarşılıqlı hücumlar şəraitində keçən oyunun birinci hissəsində hesab açılmayıb.İspaniyalı baş hakim Antonio Mateunun idarə etdiyi oyunun 53-cü dəqiqəsində Milan Badelj Xorvatiya millisini hesabda önə çıxarıb. Matçın 73-cü dəqiqəsində Xorvatiya millisinin qapısına təyin olunmuş penalti zərbəsini Qilfi Siqurdsson dəqiq yerinə yetirərək hesabı bərabərləşdirib. Qarşılaşmanın 90-cı dəqiqəsində isə İvan Perişiç Xorvatiya millisinin qələbə topunu vurub.

Beləliklə, görüş "damalılar"ın 2:1 hesablı qələbəsi ilə başa çatıb.

## Koreyalılar "Alman maşını"nı sıradan çıxardılar

**F qrupu**

***III tur***

**Cənubi Koreya - Almaniya - 2:0 (0:0)**
**Qollar:** Kim Yonq Qvon, 90+4, Son Hun Min, 90+6
**Sarı vərəqələr:** Yunq Vo Yunq, 9; Le Yae Sunq, 23; Mun Seon Min, 48; Hun Min Son, 65
**Hakimlər:** Mark Geyger, Co Fletçer, Frenk Anderson (hamısı ABŞ)
***27 iyun. Kazan,"Kazan Arena", 41835 tamaşaçı***

## "Meksika bibəri" acısını itirib?

**F qrupu**

**Meksika - İsveç - 0:3 (0:0)**
**Qollar:** Avqustinsson, 50, Qranqvist, 62 (pen.), Alvarez, 74 (avtoqol)
**Sarı vərəqələr:** Xesus Qalyardo, 1; Hektor Moreno, 61; Migel Layun, 86 - Sebastian Larsson, 26; Mikael Lustiq, 88
**Hakimlər:** Nestor Pitana, Ernan Maydana, Xuan Pablo Belatti (hamısı Argentina)



***27 iyun. Yekaterinburq. "Sinara Arena", 33061 tamaşaçı***

| | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| *1.İsveç* | 3 | 2 | 0 | 1 | 5-2 | 6 |
| *2.Meksika* | 3 | 2 | 0 | 1 | 3-4 | 6 |
| *3.Cənubi Koreya* | 3 | 1 | 0 | 2 | 3-3 | 3 |
| *4.Almaniya* | 3 | 1 | 0 | 2 | 2-4 | 3 |

F qrupunun digər oyununda isə İsveç millisi Meksika yığması ilə qarşılaşıb. Qarşılıqlı hücumlar şəraitində keçən oyunun birinci hissəsində hesab açılmayıb. İkinci hissəyə daha fəal başlayan "mavi sarılar" Meksika millisinin qapısından üç top keçirməyə müvəffəq olublar. Beləliklə, oyun İsveç komandasının 3:0 hesablı qələbəsi ilə başa çatıb. Avropalılar bu qələbə ilə qrup birincisi kimi səkkizdəbir finala yüksəlib. Qrupda 6 xalı olan Meksika yığması isə ikinci pillədə qərarlaşaraq F qrupunda səkkizdəbir finala vəsiqə qazanan ikinci komanda olub.

## "Sambaçılar" rəqibləri ilə əyləndilər

**E qrupu**

***III tur***

**Serbiya - Braziliya - 0:2 (0:1)**
**Qollar:** Paulinyo, 36, Tyaqo Silva, 68
**Sarı vərəqələr:** Adam Lyayiç, 33; Nemanya Matiç, 48; Aleksandr Mitroviç, 70
**Hakim:** Alireza Faqani, Reza Sokandan, Mohammedreza Mansuri (hamısı İran)
***27 iyun. Moskva. "Spartak" stadionu, 44190 tamaşaçı***

Günün son oyunları E qrupunda oynanılıb. 1/8 finala çıxmaq uğrunda mübarizə aparan Serbiya millisi Braziliya komandası ilə qarşılaşıb. Görüş "pentakampeonlar"ın hücumları ilə başlayıb. "Sambaçılar" oyunun 36-ci dəqiqədəsində istəyinə nail olublar. Paulinyo fərqlənərək komandasını hesabda irəli çıxarıb. Oyunun ikinci hissəsində isə Tiaqo Silva növbəti topu rəqib qapısından keçiriərək Braziliyanın üstünlüyünü bir qədər də artırıb. Bu matçda sonuncu qol olub və cənubi amerikalılar qələbə qazanaraq qrup lideri kimi 1/8 finala vəsiqə əldə ediblər.

Məlumat üçün qeyd edək ki, Braziliya millisi 1982-ci ildən bəri bütün dünya çempionatlarında qrup mərhələsini lider olaraq başa vurub.

## "Saatlar ölkəsi"nin komandası ehtiyatı əldə vermədi

**E qrupu**

**İsveçrə - Kosta-Rika - 2:2 (1:0)**
**Qollar:** Blerim Dzemaili, 31, Yosip Drmiç, 88 - Kendall Uoston, 56, Brayan Ruis, 90+3 (pen.)
**Sarı vərəqələr:** Ştefan Lixtştayner, 37; Denis Zakariya, 75; Fabian Şer, 83 - Kristian Qamboa, 11; Joel Kempbell, 29; Kendall Uoston, 89
**Hakimlər:** Klemen Turpen, Nikolya Dano, Siril Qrinqor (hamısı Fransa)
***27 iyun. Nijni Novqorod. "Volqa Arena", 43319 tamaşaçı***

| | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| *1. Braziliya* | 3 | 2 | 1 | 0 | 5-1 | 7 |
| *2. İsveçrə* | 3 | 1 | 2 | 0 | 5-4 | 5 |
| *3. Serbiya* | 3 | 1 | 0 | 2 | 2-4 | 3 |
| *4. Kosta-Rika* | 3 | 0 | 1 | 2 | 2-5 | 1 |

E qrupunun digər qarşılaşması səkkizdəbir finala çıxmaq şansını itirən Kosta-Rika və növbəti mərhələ şanslarını saxlayan İsveçrə komandaları arasında keçirilib. Gərgin mübarizə şəraitində keçən oyunda 4 qol vurulsa da qalib müəyyənləşməyib.

Görüş 2:2 hesabı ilə başa çatıb. Bu nəticəyə baxmayaraq, İsveçrə millisi qrup ikincisi kimi növbəti mərhələyə vəsiqə qazanıb.

Xatırladaq ki, indiyədək səkkizdəbir final mərhələsinin 12 iştirakçısı müəyyənləşib.

Futbol üzrə XXI dünya çempionatının səkkizdəbir final mərhələsinin görüşləri iyunun 30-dan iyulun 3-dək keçiriləcək.

***Xüsusi buraxılışı hazırladılar:***
***Anar Əhmədov,***
***Azər Əlizadə***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

# "Azərbaycan bu gün də öz idman ənənələrinə sadiqdir"

***Ömür hər insana bəxş edilən ən böyük nemətdir. Bizə verilən ömrü nə qədər sağlam və səmərəli yaşamaq isə özümüzdən asılıdır. Mütəfəkkirlərin fikrincə, idman sağlam həyat tərzi keçirmək üçün əsas vasitələrdən biridir. İdman və bədən tərbiyəsi ilə məşğul olmaq düzgün bədən quruluşu qazanmaq, qan-damar sisteminin, ürəyin normal fəaliyyətini təmin etməklə yanaşı, həm də insanı zəhmətə alışdırır, onda mərdlik, cəsarət, rəqibə hörmət kimi nəcib keyfiyyətlər aşılayır. Bu baxımdan, insan həyatında idmanın rolu danılmazdır. Sevindirici haldır ki, hazırda ölkəmizdə idmanın və Olimpiya Hərəkatının inkişafına kifayət qədər diqqət və qayğı göstərilir. Ulu öndər Heydər Əliyevin başlatdığı idman siyasəti onun layiqli davamçısı, Azərbaycan Prezienti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İdmançılarımızın beynəlxalq arenalarda qazandıqları uğurlar, Azərbaycanın mötəbər yarışlara müvəffəqiyyətlə ev sahibliyi etməsi görülən işlərin məqsədyönlü nəticəsidir.***



## "Məşğələlərin səmərəliliyi üçün yaradılan şərait mühüm rol oynayır"

Əlbəttə, qazanılan uğurların işıqlandırılmasında, dünya ictimaiyyətinə təqdim olunmasında mətbuatın rolu danılmazdır. Ömürlərini bu sahəyə həsr edən idman jurnalistlərimiz çempionlarımızın qələbələrini müntəzəm işıqlandırmaqla yanaşı, onların nəticələrini də yüksək qiymətləndirirlər. Belə qələm sahiblərindən biri də iyulun 1-də idman jurnalistika sahəsindəki fəaliyyətinin 50-ci ilini qeyd edəcək Əməkdar jurnalist, Fəxri Bədən tərbiyəsi və İdman İşçisi, "Xalq qəzeti"nin əməkdaşı Oqtay Bayramovdur. Bir neçə gün əvvəl Oqtay müəllimlə görüşüb onunla ölkəmizdə idmanın hazırkı durumu, əldə olunan nailliyyətlər, mətbuatın atletlərimizin nailliyyətlərinin xalqa çatdırılmasında, onların tanınmasında rolu və bizi maraqlandıran digər suallarla bağlı həmsöhbət olduq. Bu gün Azərbaycanın dünyada qüdrətli bir idman dövləti adını qazandığını söyləyən Oqtay Bayramovun fikrincə, bu, heç də təsadüfi deyil. "Ölkəmizdə digər sahələr kimi, həyatımızın ayrılmaz tərkib hissəsi olan idman və Olimpiya Hərəkatı da böyük qayğı ilə əhatə olunub. Bu sahələrin inkişafı ölkə rəhbərliyi tərəfindən daim diqqət mərkəzində saxlanılır. Sağlamlıq və gümrahlıq məşğələləri gənclərə nəcib keyfiyyətlər aşılayır, onları Vətənə məhəbbət ruhunda tərbiyə edir, möhkəm fiziki hazırlıqları ilə fərqlənmələrində müstəsna rol oynayır. Bu, qürurverici və çox sevindirici bir haldır. Dediyim kimi, idmanın əsas xüsusiyyətlərindən biri də məhz insanı vətənpərvərlik ruhunda tərbiyə etməsidir. Bu, olduqca vacibdir. Təcrübə göstərir ki, vətənpərvərlik ruhunda tərbiyə olunan idmançı yarışlarda daha uğurla çıxış edir. Bayrağı dalğalandırmaq, himni səsləndirmək eşqi ona əlavə stimul verir. Qeyd etmək yerinə düşər ki, böyük qələbələrin əldə olunmas üçün respublikamızda çoxsaylı Olimpiya İdman Kompleksi fəaliyyət göstərir. Bu komplekslərdə yaradılan əlverişli şərait, keçirilən keyfiyyətli məşqlər böyük qələbələrin əldə olunmasında mühüm rol oynayır. Həmin idman qurğularının sayı isə ildən-ilə daha da artır ki, bu da idmanın və Olimpiya Hərəkatının inkişafının dövlətin əsas prioritetlərindən biri olduğunu sübut edir", - deyə o, bildirdi.

Əlbəttə, uğur heç bir sahədə asanlıqla əldə olunmur. Bu, idmanda da belədir. Məqsədə çatmaq üçün gərək əzmlə məşq edəsən, yorulmayasan. Təcrübəli idman jurnalisti belə düşünür ki, uğurun əldə olunması üçün həm də ayrı-ayrı idman qurumları eyni məqsəd üçün birlikdə çalışmalıdırlar. Necə deyərlər, yumruğu bir yerə vurmalıdırlar. "İdmanın inkişafı üçün məşqçi və mütəxəssislər, ayrı-ayrı idman təşkilatları, klublar və federasiyalar vahid komanda şəklində fəaliyyət göstərməlidirlər. Ataların da dediyi kimi, güc birlikdədir. Klublar arasında rəqabət uğura yol açdığı kimi, onların eyni amal üçün çalışmaları da məqsədinə çatmağın əsas şərtidir. Burada idmançılarımızın əzmkarlığını, daim öz ustalıq səviyyələrini artırmağa çalışmalarını, qazanılan uğurlarla kifayətlənməyib daha böyük qələbələr arzusu ilə yaşamalarını da qeyd etmək olar. Çünki hamı yaxşı bilir ki, ümidləri tam doğrultmaq, güclü idman ölkəsi kimi şöhrət qazanmış Azərbaycanın adına layiqli nəticələr göstərmək lazımdır", - deyə müsahibimiz əlavə etdi.

## "Qələbələrə aparan yolda kütləvilik də əsas şərtdir"

Azərbaycan qədim dövlətdir. Tarixin müxtəlif mərhələlərində Azərbaycanın igid, mərd oğulları güləşdə, ox atmaqda mahir olublar. Elə müasir dövrümüzdə də vətənimiz öz idman ənənələri və uğurları ilə fərqlənir. Xüsusilə son illərdə qazanılan nəticələr çox şeydən xəbər verir. Əməkdar jurnalistin fikrincə, bu gün bu nailiyyyətlərin əldə olunmasında ümumilli lider Heydər Əliyevin hələ keçən əsrin ortalarından idmana göstərdiyi qayğı və diqqətin, bu sahənin inkişafı üçün atdığı sərrast addımların böyük rolu var. "Azərbaycan idmanının bugünkü böyük qələbələrinin təməlinin əsasında ulu öndər Heydər Əliyevin hələ sağlığında yeniyetmə və gənclərin möhkəm fiziki hazırlığına, sağlam və gümrah böyümələrinə, Vətənə sədaqət ruhunda tərbiyə olunmalarına daim qayğı ilə yanaşması dayanır. Yaxşı yadımdadır ki, hələ 1974-cü ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olan Heydər Əliyevin təşəbbüsü ilə keçirilmiş respublika partiya fəalları yığıncağında Azərbaycanda bədən tərbiyəsi və idmanın vəziyyəti geniş müzakirə olundu. Həmin yığıncaq sonralar idman sahəsində qələbə və rekordlara aparan yolda güclü bir təkanverici qüvvəyə çevrildi. Ulu öndər müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi illərdə çıxışlarının birində idmana xüsusi qayğını öz üzərinə götürdüyünü qətiyyətlə bütün ölkəyə bəyan etmişdi. Bir sözlə, hələ ötən əsrin ortalarından ölkəmizdə yaranmış güclü idman ənənələri indi də uğurla davam etdirilir. Azərbaycan bu gün də öz idman ənənələrinə sadiqdir. Qələbələrə aparan yolda kütləvilik də əsas şərtdir. Bizim qazandığımız idman uğurları ölkəmizdə müxtəlif idman növlərinin kütləviliyindən də xəbər verir. Amma, əlbəttə, bu kütləvilik gələcəkdə daha çox artmalıdır. Çünki kütləviliyin əsas məqsədi asudə vaxtın səmərəli təşkili, sağlamlığın möhkəmləndirilməsi, fiziki hazırlığın artırılması olsa da, kütləviliyin uğurların rəhni olduğunu da deyə bilərik. Təcrübə göstərir ki, ilk vaxtlarda idmanla sadəcə, dostluq etməyə başlayanlar sırasından sonralar məşhur çempionlar da çıxır. Son illər Azərbaycanda müxtəlif mötəbər yarışlar təşkil olunur. Ölkəmizdə təşkil edilən dünya və Avropa çempionatları, Olimpiya təsnifat turnirləri, Qran-pri, "Böyük dəbilqə" və bu kimi mötəbər yarışlar uşaq, yeniyetmə və gənclərin də hədsiz marağına səbəb olur. Deməli, bu yarışların hər biri həm də kütləviliyin artırılması yolunda növbəti addımdır", - deyə həmsöhbətimiz söylədi.

## Kütləviliyin təmin olunmasında məktəblərin böyük rolu var

İdmanın kütləviliyinə təkan verən əsas amillərdən biri də, şübhəsiz ki, orta və ali məktəblərdə idman dərslərinin keçirilməsidir. Bədən tərbiyəsi fənni orta təhsil müəssisələrində məcburi fənn kimi tədris olunur. Universitetlərdə isə vəziyyət bir qədər fərqlidir. Belə ki, bir neçə il əvvəl ali məktəblərdəki bədən tərbiyəsi kafedraları klublarla əvəz olundu və məşğələlər könüllü surətdə keçirilməyə başlanıldı. Ali məktəblərin idman müəllimləri bu addımı müxtəlif cür qiymətləndirirlər. Amma bir şey dəqiqdir ki, təhsil müəssisələrində həftədə 1-2 dəfə idman məşğələlərinin keçirilməsi şagird və tələbələr üçün olduqca vacibdir. Elə Oqtay Bayramov da bu fikirdədir. O, düşünür ki, böyük qələbələrə aparan yol məhz məktəb idmanından keçir: "Orta məktəblərdə bədən tərbiyəsi dərslərinin, idman məşğələlərinin əhəmiyyəti böyükdür. Beynəlxalq meydanda qələbələrə aparan yol məhz məktəb idmanından başlanır. Gələcəyin dünya, Avropa və Olimpiya çempionları idmandakı ilk addımlarını məhz məktəblərdə atırlar. Onların ən yaxşıları məktəblilərin rayon, şəhər, respublika spartakiadalarında çıxış edir, getdikcə seçdikləri idman növlərinin incəliklərinə dərindən yiyələnirlər. Əgər bugünkü məşhur çempionların hər hansı birindən məktəb idmanının onun gələcək uğurlarında oynadığı rolu soruşsaq, həmin illəri xoş bir həyəcanla xatırlayar. Məktəb idmanından danışarkən onu da vurğulamaq istərdim ki, keçən əsrin həm əvvəllərində, həm də ortalarında şagird və tələbələr arasında idmana maraq daha çox idi. Müntəzəm olaraq məktəblilər arasında müxtəlif idman yarışları, spartakiadalar təşkil olunurdu. İndi isə məktəblilər arasında bədən tərbiyəsinə həvəs nisbətən azalıb. Məktəbliləri idmana cəlb etmək üçün bütün təhsil müəsssisələrində əlverişli şərait yaradılmalı, müəllimlər şagird və tələbələrlə profilaktik söhbətlər etməli, onlara tanınmış idmançılarımızın çətin, amma şərəfli idman yollarını nümunə göstərməlidirlər."

Qeyd etdiyimiz kimi, idman sahəsindəki uğurlarımızın işıqlandırılmasında, böyük ictimaiyyətə təqdim olunmasında, həmçinin yeniyetmə və gənclər arasında idmanın Olimpiya Hərəkatının daha çox kütləvilik qazanmasında mətbuatın rolu da danılmazdır. Kütləviliyin təmin olunmasında mətbuatın da rolundan danışan Əməkdar jurnalist bu barədə fikirlərini hazırda Rusiyada keçirilən dünya çempionatının timsalında izah etdi: "Onu deyə bilərəm ki, bütün KİV-lər bu günlərdə Rusiyada təşkil olunan XXI dünya çempionatını geniş şəkildə işıqlandırır, yarışların keçirildiyi arenalardan xüsusi reportajlar hazırlayırlar. İdman mətbuatımız dünya çempionatının oyunlarını geniş işıqlandırdığı kimi, ölkəmizdə kütləvi idman sahəsində aparılan işə də diqqəti azaltmamalı, əksinə, bu sahədə qazanılmış təcrübə haqqında ətraflı söhbət açmalı, vacib məsələlərə öz töhfəsini verməlidir. Yəni mətbuat bütün sahələrdə olduğu kimi, idmanımızın da inkişafına yaxından kömək olmalıdır. Bizim Mirpaşa Miriyev, Aqşin Kazımzadə kimi görkəmli idman jurnalistlərimiz olub. Müasir mətbuat işçiləri onları özlərinə nümunə götürməlidirlər. Həmin qələm sahiblərinin ürəyi idmanla, idman jurnalistikası ilə döyünürdü. Gərək hər bir jurnalist yazdığlı hər cümləni ürəklə yazsın ki, idmanı, idmançıları da ictimaiyyətə sevdirə bilsin. Bu şərtin nəzərə alındığı təqdirdə deyə bilərəm ki, mətbuatın idmanın kütləviləşməsində və təbliğində əvəzsiz rolu var".

Oqtay müəllim müsahibələrinin birində demişdir ki, uğurun sirri peşəkarlıqdadır. Razılaşmamaq olmur. Bəs, görəsən, uğur üçün başqa nə lazımdır? Əməkdar jurnalist yenə də bu fikrinin üstündə qaldı və əsl idmançıya xas daha bir neçə keyfiyyəti sadaladı. "Həqiqətən də, hər hansı sahədə uğur qazanmaq istəyirsənsə, öz işinə son dərəcə məsuliyyətlə, peşəkarlıqla yanaşmalısan. İdmanda qələbə və medal yüksək hazırlıq səviyyəsi, çətinliklərdən qorxmamağı, hər hansı uğursuzluqdan sonra ruhdan düşməməyi, əksinə, daha möhkəm iradə göstərməyi tələb edir. Əzmkarlıq, yenilməz iradə, əsl döyüşçü keyfiyyətləri heç vaxt mükafatsız qalmır. Bu keyfiyyətlər idmanda peşəkarlığın başlıca tərkib hissələridir. Onlarsız uğura doğru addımlamaq olmaz", - deyə, Oqtay Bayramov əlavə etdi.

## "Bu nəticəyə bir çox ölkələr həsəd apara bilər"

Bəzi valideynlər uşaqlarının idmanla məşğul olmalarına icazə vermirlər. Burada çox vaxt əsas səbəb kimi uşaqların təhsildən yayınması halları göstərilir. Yəni bir çox valideynlər belə düşünürlər ki, idmanla təhsil paralel inkişaf edə bilməz. Amma müsahibimiz bu fikirlə razılaşmır. Onun sözlərinə görə əksinə, idman məşğələləri təhsildə də uğur qazanmağa yaxından kömək edir. Bir şərtlə ki, bütün vaxtını təkcə idman məşğələlərinə həsr etməyib, dərslərə mükəmməl hazırlaşmağı da yaddan çıxarmayasan. Müsahibimiz bu məsələdə uşaqlara çalışqan, zəhmətkeş olmağı, valideynlərə isə övladlarının idmanla məşğul olmalarına mane olmamalarını tövsiyə edir: "Çempionlarımızın həyat yollarına nəzər salarkən görürük ki, onların sıralarında neçə-neçə məşhur şəxsiyyət, görkəmli elm adamları, ictimai xadimlər, müxtəlif sahələrdə çalışan çox bacarıqlı insanlar var. Bu, təsadüfi nəticə deyil. Gərgin zəhmətin, çəkilən əziyyətlərin bəhrəsidir. Kamil insan o insandır ki, onun həm dünyagörüşü, savadı, həm də fiziki forması yerində olsun. Təhsil və idmanın inkişafı bir-birləri ilə sıx bağlıdır. İdmanla məşğul olanların beyni daha sürətli işləyir, zehni açıq olur. Buradan belə qənaətə gəlmək olar ki, idman məşğələləri təhsilə mane olmur, dərslərə yaxşı hazırlaşmaq üçün əlavə stimul yaradır", - deyə təcrübəli idman jurnalisti vurğuladı.

Bu il Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından 100 il ötür. Ötən bir əsr ərzində bir çox sahələrdə olduğu kimi idmanımızın inkişafı istiqamətində də böyük işlər görülüb. Xüsusilə Azərbaycan ikinci dəfə müstəqillik qazandıqdan sonra ümumilli lider Heydər Əliyevin rəhbərliyi ilə bu sahəyə diqqət və qayğı daha da artıb, məqsədyönlü islahatlar həyata keçirilmişdi. Müsahibimiz ötən 100 ildə Azərbaycanın qazandığı ən böyük idman uğurlarından danışarkən çox uzağa getmədən 2016-cı ildə keçirilmiş Rio-de-Janeyro Olimpiadasını xatırladı. "Bu il Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi bütün ölkəmizdə böyük təntənə ilə, Cümhurriyətin yaradıcılarına dərin minnətdarlıq hissi ilə qeyd olundu. Hazırda sayılıb seçilən dövlətlər sırasında öz yeri olan və beynəlxalq aləmdə yüksək nüfuz qazanmış Azərbaycan Respublikasında idman sürətlə inkişaf edir. Amma, əlbəttə ki, bu birdən-birə olmayıb. Azərbaycanın çox möhkəm idman ənənələri var. Ötən yüz il ərzində ölkəmiz iki dəfə müstəqillik qazanıb. 1991-ci ildə Azərbaycan ikinci dəfə müstəqillik əldə etdi. 1992-ci ildə cüdoçumuz Nazim Hüseynov Barselona Olimpiadasında öz çəkisində Olimpiya çempionu adını qazandı. Bu, həm də gələcək uğurların carçısı idi. Təkcə onu demək kifayətdir ki, idmanımızın ən bacarıqlı nümayəndələri iki il əvvəl Braziliyanın Rio-de-Janneyro şəhərində təşkil olumuş Yay Olimpiya Oyunlarında 18 medal qazanıblar ki, bu da bizim üçün rekord göstəricidir. Rekordlar isə həmişə inkişafdan xəbər verir. Bu nəticəyə bir çox ölkələr həsəd apara bilərlər", - deyə Oqtay müəllim qeyd etdi.

Bir neçə ay sonra ölkəmiz növbəti mötəbər idman yarışlarından birinə - cüdo üzrə dünya çempionatına ev sahibliyi edəcək. Dünyanın ən güclü cüdoçuları paytaxt Bakıya toplaşacaqlar. İdman ictimaiyyətinin bir üzvü kimi bu barədə də Oqtay müəllimin fikirlərini öyrəndik. O, bildirdi ki, dünya çempionatı təkcə idman yarışı deyil, həm də ümumdünya cüdo bayramı kimi qiymətləndirilməlidir. "Planetin ən yaxşı tatami ustalarını öz bayrağı ətrafına toplayacaq dünya çempionatının təşkili hüququnun ölkəmizə etibar olunması Azərbaycanda mötəbər yarışların təşkilinə verilən yüksək qiymətin göstəricisidir. Nazim Hüseynov, Elnur Məmmədli, Mövlud Mirəliyev, Rüstəm Orucov, Elmar Qasımov, Orxan Səfərov, Hidayət Heydərov kimi dünya şöhrətli cüdoçuların vətənində çempionatın keçirilməsi əsl ümumdünya cüdo bayramına çevriləcək. İdman aləmində bu bayram səbrsizliklə gözlənilir", - deyə, müsahibimiz fikirlərini yekunlaşdırdı.









Müsahibimizlə söhbət zamanı bir çox məqamlara aydınlıq gətirdik. Həmçinin idmanın və bədən tərbiyəsinin hər bir kəs, eləcə də, uşaq, yeniyetmə və gənclərin sağlam həyat tərzi keçirmələri üçün nə qədər vacib olması bir daha diqqətə çatdırıldı. İdmanla məşğul olmaq təkcə insanın özü üçün deyil, həm də təmsil etdiyi millətin, dövlətin qüdrəti üçündür. Sağlamlığın qayğısına qalmaq, həm də vətənin bayrağını beynəlxalq aləmdə dalğalandırmaq, himnimizi səsləndirmək üçün idmanla məşğul olmaq, hazırkı tanınmış idmançıları kumir seçib onların yolları ilə getmək çox vacibdir.

***Kənan Novruzov***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

# “Azərbaycan kinosu 120: tarixi, bu günü və gələcək inkişaf perspektivləri”

***Gözümü yumub, özümü çəkiliş pavilyonunda gördüm. İşıqlar, böyük obyektivlər. Dekorasiyalarsız bir film çəkilişində iştirak edirdim. Bir anlıq pavilyon məzarlığa çevrildi. Motor...! Aktyorlar nədənsə gecikirdi. Çəkiliş Fəxri xiyabanda gedirdi. Qaranlıqdan bir işıq hərəkət edərək sıra ilə düzülmüş məzarları göstərirdi. Ssenari isə mənə məxsus idi. Sujet xətti bu cür başlayır.***

## Unutmadıq səni, sənətkar! Adını çəkib, “Bismillah” dedik...

Gözüm qaya parçasında həkk olunmuş Hüseyn Ərəblinskinin memarlıq abidəsinə sataşdı. Bu həmin aktyor idi ki, “Neft milyonlar səltənətində” filmində Lütfəli bəy rolunda (1916) çəkilmişdi. Bu aktyorun kino yaradıcılığında ilk və son rolu olmuşdur. O, həm də ilk operamız olan “Leyli və Məcnun” əsərinin rejissoru idi. Tamaşanın ərsəyə gəlməsi üçün üzüyünü aylarla girov qoymuşdu. Onu bahalı üzükdən çox, dəyərli sənət maraqlandırırdı. Ərəblinski hətta da qadın obrazını yarat maq üçün bığını qırxdırmışdı. Bu hərəkətinə görə ailə üzvləri onu qəbul etməmişdi. Elə bu sənətə görə həyatını qurban vermişdi. Onu oynadığı qadın roluna görə dayısı oğlu Əbdülxaliq amansızcasına qətlə yetirmişdi. Məzarının yanında qoyulmuş lövhədə yarıpozulmuş cümlələri qeyd etməsək olmaz. Orada bu yazılıb:

Hər qəbzə xaki sənət ikən qəbrizarimin,

Hər səmti qəmli bir görünüşdür, məzarimin.

Ruhim həmişə səhnədə, cismim məzaridə,

Nə qədir səhnə varsa, varam ruzigaridə.



Kadr dəyişir, daşa çevrilmiş Məcnunu, Hüseynqulu Sarabskini göstərir. Mövzu sənətin “məcnunu” ilə başlayır. Teatra “şeytan əməli”, “kişiyə yaraşmayan peşə” kimi yanaşıldığı bir vaxtda o, bu tənələri qəbul etməyib sənətə gəlmişdi. Əsas fəaliyyəti teatrla bağlı olsa da, Sarabski Azərbaycan film tarixində özünəməxsus iz qoymuşdu. 1917-ci ildə çəkilən “Arşın mal alan” filmindəki Əsgər rolunu ilk dəfə o, canlandırmışdı. Mən öz ssenarimə uyğun olaraq, hər addımda ehtiyatlı olmağa çalışırdım. Kiminsə məzarının yanından ötəri keçmək və onu görməmək qəbahət və qeyri-peşəkarlıq olardı. Bax bu da, Sidqi Ruhulla. Onun cansız cismi üzərində qurulmuş bir cüt daş parçası. Unudulmuş görünürdü, Sidqinin məzarı. Axı o,”Bismillah”da çəkilmişdi. Axı biz, ilk filmlərimizdən danışanda “Bismillah”ı sitat gətiririk. Unutmadıq səni, sənətkar! Adını çəkib “Bismillah” dedik. Çünki, ruhuna fatihə bismillahdan başlayır.

## Çətin ki, “Arşın mal alan” dördüncü dəfə çəkilsin və sevilsin

Bir az da irəli. Budur, dahi Üzeyir bəy Hacıbəyov. Soyuq məzarı üzərində oturub, yenə də fikirli baxır. Nədənsə bu baxışlar donub, ruhu isə narahatdır. Azərbaycanın peşəkar Milli Operasının banisidir o... Onun da Azərbaycan kinosunun bir əsrdən artıq tarixində rolu az olmayıb. Belə ki, bu günə qədər də televiziya ekranlarında izlədiyimiz “Arşın mal alan”, “O olmasın, bu olsun” filmlərinin ərsəyə gəlməsində dahi sənətkarın ruhuna minnətdarıq. Təkcə onu deyim ki, Üzeyir bəyin qələmindən çıxan “Arşın mal alan” operettası milli kino tariximizə üç fərqli film bəxş edib. 1917-ci ildə çəkilən filmdə onunla bir məzarlıqda yatan Hüseynqulu Sarabski “Əsgər” rolunda çəkilmişdi. Üzeyir bəy müəllif kimi bu filmə o dövrün dahilərini dəvət etmişdi. Onu da qeyd edim ki, filmə ilk baxış ölkə hüdudlarından kənarda olmuşdu. Filmə soyuq Skandinaviyada, Finlandiyada tamaşa etmişdilər (1919-cu il 21 yanvar). “Arşın mal alan”ın sorağı bir il sonra okeanın o tayından gəlmişdi. Amerika tamaşaçıları Şərqin özünəməxsus xüsusiyyətlərini təcəssüm etdirən ekran əsərinə baxmışdılar. Bir daha qeyd edim ki, bu film üç dəfə ayrı-ayrı vaxtda çəkilmişdi. Çətin ki, “Arşın mal alan” dördüncü dəfə çəkilsin və sevilsin. Çünki həmin yaradıcı heyət həm sənət dünyasını, həm də öz dünyasını dəyişib.



Xiyabanda dəfn olunan dahilərin hər biri bir tarix, hər biri bir xatirədir. Addımları yavaşıdıb bir məzarın qarşısında dayandım. Fəxri Xiyabanda qoşa məzar. Cəlil Məmmədquluzadə - Həmidə xanım Məmmədquluzadə. Dahiliyi və xanımına olan ehtiramı son mənzildə də özünü təcəssüm etdirib. Mirzə Cəlilin dövrün hadisələrinə olan fərqli yanaşması kino tarixində də silinməz iz qoyub. O, bizə “Poçt qutusu”, “Qəm pəncərəsi” “O dünyadan salam” kimi şah ekran əsərlərini bəxş edib. Dahi Mirzə Cəlil məzardakı qəm pəncərəsindən o dünyadan salam göndərib deyirdi ki, həyatda Novruzəli kimi savadsız, Qurbanəlibəy kimi bivec olub, “Şeyx Nəsrullah” kimi yalançılara inanmayaq. Sadəcə Zəhra bəyim kimi “Anamın kitabı”nı qoruyub, milli dəyərlərimizə sadiq qalaq.

Məmməd Əlilini çox az tamaşaçı tanıyır. Əslində isə o, kino tarixində silinməz izi olan bir şəxsiyyət olub. Boyu kimi, oynadığı rollar da kiçik və epizodik idi. O, “Babək”də, “Koroğlu”da “Bəxtiyar”da, “Dağlarda döyüş”də çəkilib. Amma hansı rolda? Heç kim xatırlamır. Bircə “Dəli Kür”də Molla Sadığın Allahyara atdan düşməsini xahiş edəndə, arxadan “Sənə deyir, düş atdan, düş də” sözünü deyən eynəkli kişi - Molla Səfi yada düşür. Bax, odur Məmməd Əlili. Qeyd edim ki, Əlili suflyorluqdan kinorejissorluğa qədər yüksələn incəsənət xadimi olub.

## Sənəti uca tutub, səhnəni məbədə çevirən dahilər

Bəs xanımlarsız film olar? Ssenari nəyə oxşayar? Azərbaycan kino tarixində qadın aktrisaların rolunu xüsusi qeyd etmək olar. İkinci Fəxri xiyabanda gül-çiçək içərisində bir məzara diqqətimi yönəltdim. Orada bir xanım uyuyur, adı Barat Şəkinskayadır. Soyadının Şəki ilə əlaqədar olmasına baxmayaraq, o, qədim Şuşada anadan olmuşdu.

O, yaddaşlarda travist (oğlan rollarını oynayan aktrisa -red) kimi qalmışdı. Səhnədə “Napoleon”, “Kostya” rolunu oynayıb,”Sənəm”i qulluqçu, “Şövkət”i pambıqçı, “Tükəzban”ı şikayətçi, “Sürəyya”nı təmkinli bir xanım obrazında canlandırmışdı. Sənətdən və səhnədən isə çox maraqlı vəziyyətdə ayrılmışdı. Eşitdiyimə görə məşqlərin birində yorğunluqdan əsnəyən bu alicənab xanım səhnəni bu sözləri deyib tərk etmişdi: “Hə, Barat səninki burada qutardı!” Belə bir xanımı unutmaq olar?

Heç Leyla Bədirbəylini də unutmaq olmaz. Şux qamətli, gözəl gözlü, səhnəmizə yaraşıq verən bu xanım illər keçsə belə, yaddaşlarda qalacaq. Biz onun çəkildiyi filmlərə tamaşa edəndə sanki onun hələ də aramızda olduğunu düşünürük.

Onun kinoda yaratdığı Gülçöhrə, Zərnigar, Şəhrəbanu, Tutibikə, Kərbəlayi Fatma, Xalidə, Tafta və s. obrazlar 120 illik kino salnaməsinin incilərindəndir. İnanmaq olmurki, bu cür sənətkar kino və öz dünyasını əbədi olaraq tərk edib. Xanımlardan bəhs edən kadrlar mənim ssenarimə xüsusi bir ahəng qatdı. Çəkiliş isə fasiləsiz olaraq davam edirdi. İşçi heyət yeni qəhrəmanı canlandırmağa çalışırdı.

## Onlar tamaşaçını bayağı ifadələrlə güldürmürdülər

Deyirlər ki, məzarlar da insan xarakterinə bənzəyir. Bir növ özünəməxsus olur, dəyişmir. Kadr ümumi planda Lütfəli Abdullayevin məzarına tərəf yönəlib. Sanki açıq səhnə içərisində daha bir səhnə var. Amma L.Abdullayev orada görünmür. Səhnə arxasındadır. Heç vaxt da görünməyəcək. Biz yalnız onun yaratdığı obrazları görəcəyik. Zülümov Əhmədi axtaracaq, Məhəmməd Züleyxanı bir daha sevəcək, Vəli Tellini qaçırdacaq, Kefçilov yenə də qatarda yatıb, yuxuya qalacaq. O, elə bir aktyor idi ki, susanda belə tamaşaçıda təbəssüm oyadırdı. Onun bayağı sözlər deməyə, tamaşaçıdan alqış istəməyə, özünü tərifləməyə ehtiyacı yox idi. Tamaşaçı onu sözü ilə alqışlayıb, sənətinə ehtiram göstərirdi. Bax budur mənalı ömür, yadda qalan sənət nümunəsi.

Əgər Lütfəli Abdullayevdən danışırıqsa onunla bir dövrdə yaşayan Əliağa Ağayevi də unutmaq olmaz. Onun özünəməxsus aktyorluq bacarığı, danışıq tərzi, dəyişən xarakteri təkrarolunmazdır. O, yaratdığı obrazlara möhür vurub, dünyasını dəyişən sənətkarlardandır. Məşədi İbadı onun kimi canlandıran, “sehrli xalatı” onun kimi oğurlayan, Şirin kişini taksi ilə Bakıya yola salan, Kamili körpü üzərindən haraylayan Şıxəli kimi plovu bəyənməyən, Əbülfəz kimi ayda-ildə bir dəfə arvadı ilə bazara getməyə ixtiyar axtaran ikinci bir aktyor dünyaya gəlməyəcək ki, dünyadan köçsün. Mərhum aktyorumuz süfrə arxasında dostları ilə lətifə söyləyib, gülərkən 70 yaşında gözlərini əbədi qapayıb. Onun son lətifəsi həm güldürdü, həm də ağlatdı. Gülüş bununla bitmir. Bizi güldürənlər arasında Ağahüseyin Cavadov da var idi. Milli kinomuzda epizodik xarakter maskalarından məharətlə istifadə edən bu aktyorumuz heç vaxt unudulmayacaq. Ssenariyə onun məşhur frazalarını əlavə edək. Qoy o, desin ki, “İtirmişəm ki, tapım?”, “O şeylərə heç əlimi də vurmamışam”, “Mən 40 il bundan qabaq yetim qalmışam”, “fala baxıram, zər atıram”, “rişğənd eləmə bala, bəlkə, biz bir-birimizi sevdik, adaxlandıq”. Bu sözləri bu gün də eşidərək, işlədirik. Sabah da eyni cür olacaq.

## Budur insan taleyi, budur həyat

Kino tariximizdə iki dahi sənətkardan eyni vaxtda söz açmaq istəyirəm. Adil İsgəndərov və Ələsgər Ələkbərov. Hər iki aktyorumuzun ağır xarakteri kinoda da öz əksini tapmışdı. Deyilənlərə görə, onlarla söhbət etmək elə də asan olmurdu. Onlardan biri “Kərbəlayi İsmayıl”, digəri isə “Rüstəm kişi” xarakterini yaratmaqla kino salnaməsində yeni bir səhifə açmışdılar. Təəssüf ki, onlar bir-biri ilə danışmırdılar. Onlar bu dünyadan küsülü köçmüşdülər. Budur insan taleyi, budur həyat. Bu ssenaridə obrazlar o qədərdir ki, onları yenidən yad etmək, həyat yollarına nəzər yetirmək, az qala bir ömrü əhatə edər. Kimlər yoxdur ki, bu kadrda?

Ağasadıq Gəraybəyli “Rüstəm bəy”, Möhsün Sənani “Qoçu Əsgər”, Məlik Dadaşov “Qəmlo”, İsmayıl Osmanlı “Kələntər”, Rza Təhmasib “Qaloş”, Mehdi Məmmədov “Qaya”, Həsənağa Turabov “Qaçaq Nəbi”, Şahmar Ələkbərov “Cavidan”, Həsən Məmmədov “Dədə Qorqud”, Nodar Şaşıqoğlu “Mixaylo”, Bəşir Səfəroğlu “Gülümsərov”, Səyavuş Aslan “Saqqal Ramiz”,Yaşar Nuri “Makintoj”, Fazil Salayev əksər rollarında “Fazil”, Əlabbas Qədirov “Cəlil”, Hacıbaba Bağırov “qızılbaş Məmmədəli”, Nəcibə Məlikova “Dilarə”, Hökümə Qurbanova “Laçın”, Nəsibə Zeynalova “Cənnət” və daha kimlər, kimlər...

Onlar bizə həmin qəhrəmanları olduğu xarakterdə çatdırıblar. Bir çoxlarının ali təhsili belə olmasa da, onlar kino dərsliyinə öz adlarını qızıl hərflərlə yazdırıblar.

Yuxumda gördüyüm, çəkdiyim filmi musiqisiz bitirə bilmərəm. Qara Qarayev, Fikrət Əmirov, Emin Sabitoğlu və Tofiq Quliyevin filmlərə bəstələdikləri musiqilərin sayəsində bu qeyri-adi, xəyali ekran işi uğurla ərsəyə gəldi. Onların bizim üçün yadigar qoyub getdiyi əsərlər əsrlər boyu öz dəyərini itirməyəcək. Budur, səhər açıldı. Sabahın xeyir, Azərbaycan. Heyif sizdən, dahi sənətkarlarımız. Siz daim yaddaşlarımızda qalacaqsınız. Ruhunuz şad olsun. Çünki Siz 120 illik Azərbaycan Kinosu tarixində şanlı səhifələr yazmısınız.

***Anar Əhmədov***

**P.S.** *Bu yazını hazırlamaq üçün hər iki Fəxri xiyabana baş çəkmişəm. Hər bir sənətkarın məzarı qarşısında bir neçə dəqiqə dayanıb, onları yad etmişəm. Bu ziyarət axşama qədər davam edib. Sonda diqqətimi Yusif Səmədoğlunun məzarı üzərində yazılmış sözlər çəkib: “Yuxunuz şirin olsun, dirilər”.*

---

*“Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün”.*

# DÜNYA İDMANI





## Britaniyalı pilot liderlik edir

Formula-1 üzrə “Mercedes” komandasının pilotu Luis Hamilton Fransa Qran-pri yarışlarının qalibi olub.

Britaniyalı pilot dünya çempionatı çərçivəsində mövsümün 3-cü, karyerasında isə 65-ci qələbəsini qazanıb. Bununla Luis Hamilton şəxsi hesabda yenidən liderliyə yüksəlib.

Yürüşdə ikinci yeri “Red Bull”un təmsilçisi, hollandiyalı Maks Ferstappen, üçüncü yeri “Ferrari”nin finlandiyalı pilotu Kimi Raykkonen tutublar.

Luis Hamilton mövsümün 8-ci mərhələsində qələbə qazanandan sonra 145 xalla şəxsi hesabda Formula-1 yarışlarının lideri olub. Fransa yürüşündə beşinci nəticə göstərən almaniyalı pilot Sebastyan Fettel 131 xalla ikinci yerdə qərarlaşıb. Üçüncü yeri 96 xalla “Red Bull”un avstraliyalı pilotu Daniel Rikkardo tutur.

Formula-1-in növbəti yarışları gələn həftə Avstriyanın Şpilberq şəhərində keçiriləcək.



## Rafael Nadal çox narahatdır

Məşhur tennisçi Rafael Nadal tennis idman növünün gələcəyi ilə bağlı fikirlərini bölüşüb.

İspaniyalı idmançı bu idman növünün gələcəyindən narahatlığını ifadə edib.

“Hazırda ötürməyə daha çox yer verilir. Bununla bağlı nəsə etmək lazımdır. Yoxsa tennisdə oyun ancaq ötürmələrdən ibarət olacaq. Bir sözlə, 10 ildən sonra tennisin gələcəyi təhlükədə ola bilər”, - deyə tanınmış tennisçi bildirib.

## Dünya çempionu döyüşü təxirə saldı

Boks üzrə ağır çəki dərəcəsində WBA, IBF, WBO və IBO versiyaları üzrə dünya çempionu Antoni Çoşua rusiyalı boksçu Aleksandr Povetkin arasında döyüş bu il sentyabrın 22-də keçiriləcək.

İyunun 26-da WBA Antoni Çoşuanı dünya çempionluğuna mütləq namizəd Aleksandr Povetkinlə müqavilə bağlamağa məcbur edib. Bu səbəbdən indiki dünya çempionu WBC versiyası üzrə dünya çempionu Deonte Uaylderlə döyüşünü təxirə salmağa məcbur olub.



## “Qızımı hər kəsdən, hər şeydən çox sevirəm”

ABŞ tennisçisi Serena Uilyams bugünlərdə keçiriləcək “Uimbldon” turnirindən daha çox qızı Olimpiya haqqında fikirləşdiyini etiraf edib. Kiçik qızı barədə ana kimi narahat olduğunu dilə gətirən tennisçi deyib: “Hər dəqiqə, hər saniyə fikirləşirəm ki, görəsən, qızım necədir? Yıxılıb, zədələnməyib ki? Olimpiya hətta yerdə iməkləyəndə belə onu hər şeydən qorumaq istəyirəm. Qızımı hər kəsdən, hər şeydən çox sevirəm”.

İdmançı xanım həyatında tennis olmasaydı, ikinci övladını dünyaya gətirmək barədə düşündüyünü deyir. Amma Serena Uilyams ikinci uşağı olduğu təqdirdə idman karyerasına bitirəcəyini də istisna etmir.

## Məşhur hokkeyçi qadın komandasını çalışdıracaq

Dördqat Olimpiya çempionu, tanınmış hokkeyçi Aleksandr Tixonov Ukraynanın qadın komandası ilə işləmək niyyətindədir.

Bunun üçün o, Ukraynadakı “Raubiçi” İdman Kompleksində olub və kollektivlə görüşüb. Komandanın məşqçi heyəti və idmançılarla səmimi söhbət edən Aleksandr Tuxonov onlarla işləməyə hazır olduğunu bildirib.

## 2 qat Olimpiya çempionu yarışlara televizordan baxır

Voleybol üzrə ikiqat Olimpiya çempionu Yekaterina Qamova futbolla bağlı fikirlərini bölüşüb.

Sevdiyi futbol klubu və oyunçu ilə bağlı suala cavab verən Olimpiya çempionu deyib: “Heç bir kluba və oyunçuya azarkeşlik etmirəm. Yalnız Çempionlar Liqasının final oyunlarına baxıram. Bu oyunlarda Messi, Ronaldo, Salah və başqa futbol ulduzlarının özünü necə aparmasını izləyirəm. Amma mənim xoşuma daha çox belçikalı de Bruyne gəlir. Ölkəmizdə keçirilən dünya çempionatını televizordan izləyirəm”.



## “Saqqalımı kəsdirmək fikrim yoxdur”

NBA-nın tanınmış basketbolçusu Ceyms Harden dünya idmanında məşhur saqqalı ilə tanınır. “Rokets” klubunun oyunçusu saqqalı kəsdirmək fikrində olmadığını bildirib.

“Bu saqqal mənim imicimdir, başqa sözlə desək, nişanımdır. Siz mənim adımı bilməyə bilərsiniz, amma saqqalım haqqında mütləq eşitmisiniz. Bu imic mənim xoşuma gəlir və onu kəsdirmək fikrim yoxdur”, - deyə Ceyms Harden bildirib.



## *NBA çempionu 5 yaşlı qıza uduzdu*

NBA-nın ən güclü snayperlərindən olan Kley Tompson körpə qızcığaza uduzub.

Dünya şöhrətli basketbolçu 5 yaşlı qıza “Pop-A-Shot” adlı internet oyununda məğlub olub. NBA-nın 3 qat çempionu Kley Tompson hazırda “Qolden Steyt” klubunun heyətində Çində səfərdədir.

## Meksikadan Cənubi Koreyaya hədiyyə

Cənubi Koreya yığmasının dünya çempionatında Almaniya üzərində qələbəsi (2:0) Meksikada sevinclə qarşılanıb. Meksikanın ticarət markalarından olan “Estrella Jalisco” asiyalıların Vaşinqtondakı səfirliyinə pulsuz içki göndərib.

Pivə şirkəti belə bir hədiyyə ilə Cənubi Koreyaya təşəkkür edib. “Estrella Jalisco” Meksika yığmasının rəsmi sponsorudur.

Qeyd edək ki, Meksika qrup mərhələsinin son turunda İsveçə böyük hesabla (0:3) məğlub olmasına baxmayaraq, Cənubi Koreyanın Almaniya üzərindəki qələbəsi sayəsində 1/8 finala yüksəlib.

## 64 illik rekord qırıldı



Rusiyada keçirilən dünya çempionatında ilk dəfə qolsuz bərabərlik qeydə alınıb. C qrupu çərçivəsində təşkil olunan Danimarka - Fransa matçında qapılara top vurulmayıb. Bununla mundiallar tarixində yeni rekord rəsmiləşib. Belə ki, buna qədər keçirilən 36 görüşün hamısında qapılardan top keçib. Sonuncu dəfə ardıcıl ən çox oyunda qol vurulan turnir 1954-cü ildəki dünya çempionatına təsadüf edib. Azarkeşlər İsveçrədəki həmin mundialın ardıcıl 26 görüşündə qol izləyə bilmişdilər.

Beynəlxalq Futbol Federasiyası (FİFA) Polşa millisini 10 min İsveçrə frankı məbləğində cərimələyib. Bu, polşalı azarkeşlərin transparant qaydalarına uyğun olmayan plakatlar nümayiş etdirməsi ilə bağlıdır. Hadisə Moskvada Polşa-Seneqal oyununda baş verib.

## DÇ iştirakçısı niyə cərimələndi?

FİFA kluba cərimə tətbiq edilməsini polşalı azarkeşlərin “siyasi və təhqiramiz məzmunlu plakatlar” nümayiş etdirməsi ilə əlaqələndirib. Burada söhbət üzərində ölkənin gerbi ilə yanaşı, Polşa millətçilərinin istifadə etdikləri rəmzin təsvir olunduğu bayraqdan gedir.



FİFA stadionlarda siyasi şüarların nümayişinə qadağa qoyub.

Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
H/H AZ79IBAZ38090019449333849204
M/H 0137010002944
KOD 805250
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.

*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-90-54; 564-74-19